

6

### Tengiz Txilava: Gürcü ictimaiyyəti Heydər Əliyevin xatirəsini həmişə əziz tutur



2

# Prezidentin ”Zəngəzur cədvəli” XƏBƏRDARLIQDIR!

*Ölkə başçısının, cənab Prezident İlham Əliyevin bölgələrə səfəri davamlı xarakter daşıyır və bu səfərlər zamanı verdiyi mesajlar da diqqət mərkəzindədir. Təkcə Azərbaycan xalqı deyil, bütün dünya ictimaiyyətinin diqqət mərkəzində olan bu mesajlar beynəlxalq hüquq normalarına söykənməklə, milli maraqların təmin olunmasında xüsusi əhəmiyyət daşıyır və bu məqam da diqqətdən yayınan deyil.*



Səs
№ 225 (6425) 9 dekabr 2021-ci il. Qiyməti 40 qəpik

# 10 dekabr

## Zəfər paradı - “Qarabağ Azərbaycandır” kəlamının nidası!



7

*Siyasət və döyüş meydanında işğalçı düşməni layiq olduğu yeri göstərilməklə yanaşı, bir daha sübut edildi ki, bizi öz haqq işimizdən heç bir qüvvə çəkindirə bilməz.*

### “Gələn ildən bu şəxslər də ünvanlı sosial yardım ala biləcək”

Gələn ildən insanların ünvanlı sosial yardım almaq üçün müraciət imkanları genişlənəcək. Bunu Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev deyib.



3

### Uşaq zorakılığının pərdəarxası məqamları NƏLƏRDİR?



*Zorakılığa məruz qalan uşaqlar üçün psixi problemlər qaçılmaz olur. "Travmanı kimin yaratdığı travmanın növü və şiddəti qədər önəmlidir" deyən mütəxəssislər, uşaq üçün ən sarsıdıcı travmanın ailə tərəfindən törədilən zorakılıq olduğunu vurğulayırlar.* 3



### Sevinc Osmanqızının prezidenti Paşinyandır

### Ermənistanın mina xəritələrini verməməsi NƏYƏ HESABLANIB?

*“Ermənistan tərəfindən mina xəritələri təqdim edilsə belə doğruluq ehtimalı çox aşağıdır. Qarşı tərəf bunu əllərində olan xəritənin bundan ibarət olduğunu deməklə məsələdən yayınmağa çalışırlar”.*




3

### ÇAY bu xəstəlikdən də qoruyur:

*Amerika alimləri çayın növbəti faydasını aşkar ediblər. Araşdırmalar göstərib ki, çay qidaların qlikemik indeksini və nəticədə qanda şəkərin səviyyəsini azaldır.* 16

### Sahibkarlara necə süni maneələr yaradılır? - İş adamları güzəştlərdən istifadə edə bilirmi?



### Avropa dəyərləri bizə nə verir: nə itiririk, nə qazanırıq?



Son dövrlərdə cəmiyyətimizdə bəzi qüvvələr tərəfindən milli-mənəvi dəyərlərə qarşı hücumlar artıb. Öz əxlaqını, vicdanını, namusunu, dəyərlərini qoruyan insanlara Söylü demiş belə birtəhər baxırlar. Bunu konkret kimlər edir, Şərif demişkən ”subutalni, dokumentalnı” sizə deyə bilmərəm, amma necə və niyə edir bu haqda bəzi mülahizələrim var.

### “Real”da tarixi rekord: 600 qol!



16

Madrid ”Real”ı, UEFA Çempionlar Liqasında daha bir ilkə imza atıb. Belə ki, ”kral klubu” buna ötən gecə qrup mərhələsinin 6-cı turunda ”İnter”lə matçda (2:0) qalib gəlməklə nail olub.



### Müharibə havadadır... Dünya Bayden-Putin görüşünü necə şərh edir? 8

*Rusiya və ABŞ prezidentləri Vladimir Putin və Co Bayden arasında çoxdan gözlənilən telekörpü şəklində görüş baş tutdu.*



### Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunda tunellərin inşasına başlanılıb 13

*Oktyabr ayının 26-da Azərbaycan və Türkiyə prezidentləri tərəfindən təməli qoyulan Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun ...*

***Beynəlxalq güclər zaman-zaman Qarabağ münaqişəsinin həllini Ermənistanın xeyrinə həll etməyə çalışırdılar. Bu, təkzib edilməsi mümkün olmayan bir faktdır və bunun bədəlini beynəlxalq güclər deyil, son nəticədə Ermənistanın özü ödəməli oldu. Ermənilər anlamaq istəmədilər ki, gec-tez bu münaqişə aktiv fazaya keçəcək və böyük faciə ilə nəticələnəcək. Bu, əlbəttə, ilk növbədə, Ermənistandakı siyasət adamlarını düşündürməli idi ki, yaxın qonşunun torpaqlarını işğal etmək və bu əraziləri mənimsəmək planları yaxşı heç nə vəd etmir.***

# Qalib lider sözünü ünvanlı və qətiyyətlə deyir!



## *Azərbaycan Prezidentindən Ermənistana növbəti xəbərdarlıq: "Bizim şərtlərimizi qəbul etməlidirlər"*

Təhlil

Bütün 30 illik işğal dövründə Ermənistan anlamaq istəmədi ki, onun mühüm vəzifələrindən biri özünün başqalarının əlində olan müstəqilliyini geri alıb, işğalçılıq siyasətindən əl çəkmək və qonşularla dinc yanaşı yaşamaqdır. Bir də işğalçı Ermənistan onu da bilməlidir ki, yalanın zaman baxımından bir ömrü olsa da, həqiqət əbədidir. Bəli həqiqət əbədidir. Bu gün Azərbaycan dövlətinin diplomatik ”Dəmir yumruq” siyasəti nəticəsində nəticəsində 20 faizdən çox torpaqlarımızı 30 il həsrətdə saxlayan, ”Böyük Ermənistan” xülyasına, ”24 aprel” stereotipinin ağ yalanlarına 44 gün ərzində son qoyuldu, əzə bildi. Bu Azarbaycanın haqq yolu idi və həqiqət hər zaman yalan üzərində qələbə çalıb. Bu əzm xalq-dövlət birliyinin, inamının qələbəsidir, bu, Ali Baş Komandanın, Azərbaycan Prezidentinin ”Dəmir yumruq” siyasətinin qələbəsi, xalq-iqtidar-ordu birliyinin həqiqətidir. Və bu qələbədə bütün şəhidlərimizin, Xocalı soyqırımı, 31 mart soyqırımı şəhidlərimizin qanı yerdə qalmadı, Azərbaycan yeni reallıq yaratdı, Ermənistanın kapitulyasiyası oldu. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev cənablarının dediyi kimi: ”Ermənistan məğlub edilmiş ölkədir. Azərbaycan zəfər çalmış ölkədir, Siz isə öz miskin həyatınızın sonuna qədər məğlub edilmiş, qorxaq damğası ilə yaşayacaqsınız”.

Bax, budur, həqiqət! Ancaq son hadisələr göstərir ki, hətta müharibədə rüsvayçı məğlubiyyətindən sonra belə bu ölkə yenə də müstəqil siyasi qərarlar qəbul etmək imkanlarından çox uzaqdır. Bu da ondan irəli gəlir ki, bu xalqın milli dövlətçilik tarixinin kökü olmadığı və məğlub olduğu üçün sülh müqaviləsinin şərtlərini qəbul etməli və razılaşmalıdır. Və bu gün Qarabağa hansısa statusun verilməsi ümumiyyətlə, mümkün deyil. Bunun heç bir siyasi və ya hüquqi əsası yoxdur. Çünki bu gün şərtləri qaliblər diktə edir. Belə olan halda ...

### ”Ermənistan da gördü, dünya da gördü, heç kim bizi saxlaya bilmədi”

Prezident İlham Əliyev dekabrın 6-da Qubanın Qonaqkənd qəsəbəsində sakinlərlə görüşü zamanı deyib ki, Ermənistan da gördü, dünya da gördü, heç kim bizi saxlaya bilmədi: ”Müharibə dövründə bizi saxlamaq istəyənlər olub, kifayət qədər güclü dairələr olub, amma bizi dayandıra bilmədilər. Mən demişdim ki, bizə tarix versinlər torpaqlarımızdan nə vaxt çıxır, o an biz dayanmağa hazırıq. Bu gün də eyni sözü deyirəm. Amma deyirəm ki, bizə tarix versinlər, Zəngəzur dəhlizi nə vaxt açılacaq və belə olan halda, heç bir problem olmayacaq. Ona görə hesab edirəm ki, həm Ermənistan rəhbərliyi, həm Ermənistan ictimaiyyəti, əhalisi bunu başa düşməlidir. Biz istədiyimizə nail olmuşuq, oluruq və olacağıq. Yaxşı olar ki, bu məsələ konstruktiv şəkildə danışıqlar yolu ilə, qarşılıqlı anlaşma yolu ilə həll olunsun. Çünki İkinci Qarabağ müharibəsi bütün dünyaya xalqımızın iradəsini, gücünü və birliyini göstərdi. Yol boyunca gələndə gördüm, şəhidlərin şəkilləri vurulub. Hər bir yerdə belədir, - mən son vaxtlar Qarabağ bölgəsinə tez-tez gedirəm, - kəndlərdə şəhidlərin şəkilləri vurulub. Yəni, bu Zəfəri bütün Azərbaycan xalqı əldə edib”.

Bəli, qələbəmizlə tarixi ədaləti bərpa etdik, xalqımızın ləyaqətini bərpa etdik. İndi isə artıq yeni dövr başlayır. Və ermənilər istəsələr də, istəməsələr də üzərinə götürdükləri öhdəlikləri yerinə yetirməyə məcbur olacaqlar və Ermənistanın oyunları heç nə verməyəcək. Buna görə də Ermənistan sülh üçün bütün zəruri addımları atmalıdır. Ən əsası isə üzərlərinə düşən öhdəlik tezliklə Zəngəzur dəhlizini açmaqdır. Onlar istəsələr də, istəməsələr də buna məcbur olacaqlar. Odur ki, indi vəziyyəti gecikdirməyin zərbəsi də elə onların özünə dəyəcək.

### Ermənistana son xəbərdarlıq: ”Tarix versinlər, Zəngəzur dəhlizi nə vaxt açılacaq...”

Dövlət başçısı Qubanın Qonaqkənd qəsəbəsində sakinlərlə görüşü zamanı qəsəbə ictimaiyyəti ilə görüşündə çox mühüm siyasi əhəmiyyətə malik tezislər səsləndirib. Bu tezislərin çoxu ilk dəfə idi ki, səslənirdi. Ölkə Prezidenti dəfələrlə Ermənistanın hərbi-siyasi rəhbərliyinə çağırışlar etmişdi ki, işğalda saxlanılan ərazilərin boşaldılması ilə bağlı qrafik təqdim edərsə, Azərbaycan tərəfi hərbi əməliyyatları dayandıra bilər. Vurğulanmışdı ki, bu olmayacağı təqdirdə Azərbaycan öz haqlı mübarizəsini sona qədər davam etdirəcək. Məhz bunun nəticəsində Ermənistan döyüş meydanında ağır məğlubiyyətə imza atdı və kapitulyasiya aktına imza atmalı oldu. Ermənistan məhz kapitulyasiya sənədinə imza atdıqdan sonra Kəlbəcərin, Laçının və Ağdamın işğaldan azad edilməsi ilə bağlı üzərinə öhdəlik götürdü. Prezident İlham Əliyev də Qonaqkənddə olarkən Ermənistan hərbi-siyasi rəhbərliyi qarşısında yeni bir məsələni qoydu. Əslində bu yeni bir mövzu da deyil. Zəngəzur dəhlizinin açılması məsələsi 10 noyabr Bəyanatında da öz əksini tapıb. Sadəcə olaraq Ermənistan bu bəyanatın məlum bəndini icra etməkdən boyun qaçırır. Ona görə də bu proses uzanır. Ermənistanın baş naziri kommunikasiyaların açılmasından bəhs etsə də, digər yandan buna qarşı çıxır. Belə reallıq fonunda da ölkə başçısının məhz bu çağırışı ortaya çıxdı. Bu da onunla bağlıdır ki, Ermənistan Zəngəzur dəhlizinin açılması ilə bağlı konkret müddəti Azərbaycana təqdim etməlidir.

Çünki bu gün qalib lider Prezident İlham Əliyev irəli sürdüyü şərtlər qəbul edilir və o cümlədən Zəngəzur dəhlizinin açılması ilə bağlı konkret müddət göstərilməsə, bu vaxtı Azərbaycan müəyyən edəcək. Belə olan halda Ermənistan ağıllarını başlarına yığıb bilməlidirlər ki, Azərbaycan indiyə kimi nəyi diqtə edibsə o icra edilib. Belə ki, II Qarabağ müharibəsindəki məğlubiyyəti dadmış Ermənistan rəhbərliyi indiki məqamda illuziyalarla yaşamamalı və Azərbaycanın irəli sürdüyü təklifləri icra etməlidir və Zəngəzur dəhlizinin açıllması ilə bağlı konkret addımlar atmalıdır. Və Ermənistanın baş naziri Nikol Paşinyan da artıq anlayır ki, həmin müddəalarda nəzərdə tutulan aspektlərdən kənar hərəkət etmək, öhdəliklərdən qaçmaq mümkün deyil. Şərtlərə əməl etmək lazımdır və həmin şərtlərə əməl etməsə bu ona və Ermənistana gələcəkdə çox baha başa gələ bilər. Daha dəqiq desək, ”Dəmir Yumruğun” növbəti zərbəsi ilə qarşılaşacaqlar.

Bir sözlə Paşinyan və Ermənistan yeni reallıqları qəbul etməli, həmin reallıqlarla barışmalıdır. Çünki Azərbaycan qalib ölkədir və bundan sonra diktə edən tərəf də hər zaman Azərbaycan olacaq! Hər kəs həqiqəti bilməli və görməlidir. Dövlət başçısının dediyi kimi: ”Kimsə bundan sonra bizə qarşı hansısa əsassız ittiham irəli sürmək istəsə, cavabını alacaq, necə ki, bu günə qədər alıb''.

***RƏFİQƏ KAMALQIZI***

# "Euroasiareview" portalı: "İtkin düşən 4000 azərbaycanlı: açıq yara hələ də sağalmayıb"

***"Eurasiareview.com" portalında Londonda yerləşən "Henri Cekson Cəmiyyəti" beyin mərkəzinin elmi tədqiqatçısı Taras Kuzionun "İtkin düşən 4000 azərbaycanlı: açıq yara hələ də sağalmayıb" sərlövhəli məqaləsi dərc edilib.***




AZƏRTAC xəbər verir ki, məqalədə Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsində son 30 ildə Azərbaycan tərəfinin verdiyi itkilər, taleyi hələ də qaranlıq qalan 4 min itkin düşmüş şəxs və Qərb düşüncəsində münaqişəyə baxışla bağlı fikirlər əksini tapıb.

Müəllif qeyd edir ki, Azərbaycan Ermənistan tərəfindən təxminən 30 il işğal altında saxlanılan torpaqlarını azad etdikdən sonra tədqiqatçılar Birinci Qarabağ müharibəsində (1988-1994-cü illər) itkin düşmüş dörd min azərbaycanlı barədə məlumat toplayırlar. Bildirilir ki, itkin düşənlərin 719 nəfəri mülki şəxsdir (326 qoca, 267 qadın və 71 uşaq).

T. Kuzio tanınmış amerikalı jurnalisti Tomas Qoltsun hələ 1994-cü ildə topladığı məlumatlara istinadən qeyd edir ki, əsir düşən mülki şəxslər qullar kimi fərdi evlərdə işlədilir, qarşı tərəflə girovlar qarşılığında, bəzən isə yemək və yanacaq əvəzinə dəyişdirilirdi. Müharibə əsirlərinin kütləvi şəkildə qətlə yetirilməsi və onların cəsədlərinin təhqir edilməsi də baş verirdi. Hətta Ermənistanın ovaxtkı prezidenti Levon Ter-Petrosyan beynəlxalq müşahidəçilərin işğalçı ölkənin münaqişə zamanı Cenevrə Konvensiyasını pozmasına dair ittihamlarını cavabsız qoymuşdu.

Məqalədə erməni əsirliyində olan azərbaycanlıların qətlə yetirilməsinə dair faktlara da yer verilir. Bildirilir ki, Ermənistan paytaxtı Yerevanda 7 müharibə əsiri güllələnib və Beynəlxalq Qırmızı Xaç təşkilatına əsirlərin qaçmağa cəhd zamanı öldürüldüyünə dair məlumat verilib. Lakin azərbaycanlı əsgərlərin cəsədlərinin analizi zamanı onların yaxın məsafədən başlarına atəş açılmaqla, qaçış zamanı güllələnməyə xas olmayan digər şəkildə qətlə yetirilməsi beynəlxalq ekspertlər tərəfindən də təsdiqlənib. 1994-cü ildə baş vermiş bu hadisə barədə "Human Rights Watch" təşkilatı da məlumat yayıb.

Yazıda, həmçinin qeyd edilir ki, Ermənistan tərəfindən törədilən cinayətlərin əksəriyyəti Qərb siyasətçiləri, ekspert və medianın heç vaxt geniş şəkildə diqqətində olmayıb. Hətta ATƏT komissiyasının üzvünə azərbaycanlı girovlar və məhkəmədən kənar öldürülmələr barədə sual verdikdə, o, ölmüş azərbaycanlılara diqqət ayırmağa lüzum olmadığını bildirmişdi.

Məqalədə, eyni zamanda, Birinci və İkinci Qarabağ müharibələri arasında müqayisələr aparılır. Bildirilir ki, həm müddətinə, həm də insan haqlarının pozulması hallarına görə hər iki müharibə arasında ciddi fərq olub. İlk müharibədə insan haqlarının pozulmasına dair kifayət qədər çox fakt baş versə də, ikinci müharibədə belə halların sayı çox az idi. Həmçinin birinci müharibədə 20 mindən çox insanın həlak olduğu halda, ikinci müharibədə 200 mülki və təxminən 7 minə yaxın hərbçinin həlak olduğuna dair rəsmi məlumatlar var.

Müəllif bildirir ki, Qərb şərqşünaslığında Cənubi Qafqazdan bəhs edərkən İslam dini haqqındakı stereotiplərdən istifadə olunur. Azərbaycanlıların qətlinə ABŞ-da biganə münasibət olsa da, ermənilər cidd-cəhdlə dəstəklənir. ABŞ və Fransadakı böyük erməni diasporu media və siyasətçilərə insan haqlarının pozulmasına dair özlərinə sərf edən məlumatları təqdim edir. Eyni məsələni mədəni irsin məhv olması barədə də söyləmək mümkündür. İnternetdə demək olar hər bir məqalə Qarabağdakı erməni mədəni irsinin məhvolma təhlükəsi altında olduğunu yazır, lakin son 30 ildə Azərbaycanın mədəni və dini abidələrinin işğal nəticəsində məhv edildiyini xatırlatmır. Azərbaycan ərazisinin 20 faizini işğal altında saxlayan Ermənistan bu torpaqları tərk edərkən geridə 1945-ci ildə ABŞ-ın nüvə bombalarının yerlə-yeksan etdiyi Xirosima və Naqasaki şəhərlərinin vəziyyətini xatırladan mənzərə qalıb.

Qərb ictimai fikrində Qarabağ müharibələri Cənubi Qafqaz xristianlarla müsəlmanlar arasında qədim münaqişənin tərkib hissəsi kimi qələmə verilir. Lakin, əslində, Qarabağ müharibələrinin nə dini münaqişə, nə də sivilizasiyaların toqquşması kimi cəhəti var, burada söhbət yalnız ərazi iddialarından gedir. Ermənistan Sovet İttifaqının daxili sərhədlərini postsovet dövrünün beynəlxalq sərhədləri kimi tanımaqdan imtina edir. Əgər Ermənistan bu addımı atarsa, o zaman Qarabağın Azərbaycanın tərkib hissəsi olduğunu qəbul etmiş olacaq.

Bütün bu sadalananları nəzərə alaraq, Qərb insanları yanlış olaraq müsəlman Azərbaycanın Birinci Qarabağ müharibəsində əksər cinayətləri törətməkdə günahkar bilirlər. Lakin cinayətkarın Ermənistan olduğu unudulur. Müəllif Ermənistanın Azərbaycanın ərazilərini işğal etməklə yanaşı, iki ən ağır beynəlxalq cinayətini də sadalayır. Onlardan biri təxminən bir milyon mülki əhalinin Qarabağdan didərgin salınması ilə onların məcburi köçkünə çevrilməsi, digəri isə 1992-ci ildə Xocalı şəhərində 600-dən çox dinc sakinə qarşı törədilən qətliamdır. Qeyd edilir ki, sovet qoşunlarının qalıqlarının köməyi ilə Xocalıda törədilən bu cinayət azərbaycanlıları qorxutmaq üçün məqsədyönlü şəkildə hazırlanmış plan idi və Tomas de Vaalın qələmə aldığı Qarabağ haqqında kitabda Ermənistan dövlət başçısı Serj Sarkisyan bununla bağlı açıq etiraflar edib.

Məqalənin yekununda diqqətə çatdırılır ki, Birinci Qarabağ müharibəsində 4 mindən çox insanın itkin düşməsini nəzərə aldıqda, 2020-ci ildə ərazilər işğaldan azad edildikdən sonra kütləvi məzarlıqların aşkara çıxarılması təəccüb doğurmur. Müəllif bu barədə Kəlbəcər rayonu ərazisində tapılan və əlləri bağlanaraq qətlə yetirilmiş mülki şəxslər barədə də ətraflı məlumat verir.

Sonda qeyd edilir ki, beynəlxalq ictimaiyyət Ermənistana arxivləri açmaq və itkin düşmüş 4 min azərbaycanlı barədə məlumatları təqdim etmək üçün təzyiq göstərməlidir.

# YAP nümayəndəsi İCAPP-ın tədbirində iştirak edib

**Dekabrın 8-də Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransının (İCAPP) iqlim dəyişikliyinə dair "Xalis sıfıra nail olmaq yönündə siyasi partiyaların rolu" mövzusunda keçirilən xüsusi videokonfransında iştirak edib.**



Tədbirdə İCAPP-ın təsisçisi və həmsədri Xose de Venesianın açılış nitqindən sonra BMT-nin 8-ci baş katibi, Qlobal Yaşıl İnkişaf İnstitutunun sədri Pan Gi Mun nitq söyləyib.

Daha sonra tədbir "Xalis sıfır"a çatmaq üçün dövlət və özəl sektorlar arasında əməkdaşlığın dəstəklənməsi" və "Xalis sıfır"a çatmaq üçün siyasi partiyaların regional və qlobal fəaliyyətlərinin gücləndirilməsi" adlı birinci və ikinci sessiyalarla davam edib. Birinci sessiyada çıxış edən Yeni Azərbaycan Partiyasının nümayəndəsi S.Qurbanov iqlim dəyişikliyi ilə mübarizədə yaşıl texnologiyalardan, alternativ enerji mənbələrindən istifadənin əhəmiyyətini vurğulayıb. Onun sözlərinə görə davamlı inkişaf və iqlim dəyişmələri məqsədlərinin həyata keçirilməsinə özəl sektorun cəlb edilməsi Azərbaycan Respublikası hökumətinin daim diqqət mərkəzindədir. Son onilliklərdə Yeni Azərbaycan Partiyasının təşəbbüsü ilə Dövlət-Özəl Tərəfdaşlığı çərçivəsində aparılan fəaliyyətlərdən biri də meşəbərpa və meşəsalmadır. Həmçinin YAP-ın təşəbüsü ilə Dövlət-Özəl Tərəfdaşlığı çərçivəsində minlərlə hektar yaşıllıq örtüyü də yaradılıb.

Tədbirin sonunda iqlim dəyişikliyi ilə mübarizədə siyasi partiyaları fəal olmağa çağıran Bəyanat qəbul edilib.

# "Gələn ildən bu şəxslər də ünvanlı sosial yardım ala biləcək"

Gələn ildən insanların ünvanlı sosial yardım almaq üçün müraciət imkanları genişlənəcək. Bunu Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev deyib. Komitə sədri bildirib ki, ünvanlı sosial yardımı təyin etmək üçün lazım olan ehtiyac meyarı 170 manatdan 200 manata artırıldığına görə ünvanlı sosial yardım almaq üçün müraciət etmək imkanı da artır. "Əvvəl ehtiyac meyarı 170 manat idi, yəni kimin ailəsinə 170 manata qədər gəlir gəlirdisə, onlar ünvanlı sosial yardım almaq üçün müraciət edə bilərdi. Gələn ildən isə ehtiyac meyarı 200 manata qaldırıldığına görə 200 manata qədər gəliri olan ailələr də müraciət etmək imkanına malik olacaq. Düzdür, indidən nə qədər insanın müraciət edəcəyini demək olmaz, ancaq daha çox insan müraciət edə biləcək", - deyə komitə sədri bildirib.



Qeyd edək ki, ünvanlı dövlət sosial yardımı almaq hüququna orta aylıq gəliri onlardan asılı olmayan səbəblərdən hər bir ailə üzvü üçün ehtiyac meyarının məcmusundan aşağı olan aztəminatlı ailələr malikdirlər./fins.az

# Azərbaycanın inkişaf modelinin təməlini qoyan Dahi Şəxsiyyət

***Müasir Azərbaycan dövlətinin Memarı və Qurucusu, xalqının və dövlətinin müstəqilliyi, inkişafı naminə böyük və əvəzedilməz xidmətləri olmuş Ümummilli Lider Heydər Əliyev hər zaman fəxr edəcəyimiz, qürur hissi ilə xatırlayacağımız Dahi Şəxsiyyətdir. Ulu Öndər fenomenal şəxsiyyət kimi Azərbaycan xalqı və dövlətçiliyi üçün çox böyük və əvəzedilməz işlər görmüşdür. Bu Dahi İnsan tarixi yazan və yaradan, onu yönəltməyi və fövqündə durmağı bacaran, dövlət idarəçiliyi və siyasi təlimlər elmini öz fəaliyyəti ilə diktə edən nadir şəxsiyyətlərdən biri idi.***



Azərbaycanın müstəqil dövlət quruculuğuna aparan yol 1969-cu ildən - məhz Onun birinci dəfə hakimiyyətə gəlişindən sonra başlayıb. XX əsrin sonu Azərbaycan xalqının həyatında taleyüklü bir dövr kimi xarakterizə olunur. Həmin dövrdə baş verən hadisələr Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışını şərtləndirdi. 1993-cü ildə Ulu Öndər Heydər Əliyev ikinci dəfə hakimiyyətə gəlişi ilə dövlətçiliyimiz yox olmaq təhlükəsindən xilas edilib. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev xilaskarlıq missiyası ilə dövlət müstəqilliyini qoruyaraq, respublikada tüğyan edən ictimai-siyasi böhranı aradan qaldırıb və ölkəmizdə inkişafın təməli qoyulub. Ulu Öndər Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı Azərbaycanda böyük uğurlara, xalqın sosial rifah halının yaxşılaşdırılmasına, dövlətimizin dünyada yerinin və rolunun möhkəmlənməsinə səbəb olub. Azərbaycanın müstəqil dövlət kimi təbii sərvətlərinə sahib çıxması, milli mənafeyini, iqtisadi və strateji maraqlarını müdafiə etmək gücünə malik olması Ulu Öndər Heydər Əliyevin uğurlu siyasətinin məntiqi nəticəsidir. Bütün həyatını Azərbaycanın və xalqın taleyi ilə bağlayan Ulu Öndər Heydər Əliyev müstəqil dövlətimizin tarixini yaradıb.

## HEYDƏR ƏLİYEVİN DƏRİN ZƏKASI, GÜCLÜ İRADƏSİ ÖLKƏNİ SABİT İNKİŞAF VƏ TƏRƏQQİ YOLUNA ÇIXARDI

Müstəqilliyimizin ilk illərinə diqqət yetirsək, ictimai-siyasi vəziyyətin gərginliyini və belə bir zamanda, Azərbaycanın uçurum qarşısında olduğunu daha aydın görmək olur. Ölkədə xaos, anarxiya və özbaşınalıq baş alıb gedirdi. Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı Azərbaycanın qarşısında yeni-yeni imkanlar açdı və uğurların təməlini qoydu. Əlbəttə ki, bu gün böyük fəxarətlə söz açdığımız uğurların yolu çətin, ağır və məşəqqətli yoldan başlanıb. Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışı yenicə qazanılmış, dövlət müstəqilliyini itirmək təhlükəsi qarşısında qalan ölkəmizin ictimai-siyasi və iqtisadi-hərbi problemlərinin uğurlu həlli ilə tarixi hadisəyə çevrildi. Böyük Şəxsiyyət olmasaydı, Azərbaycanı heç bir qüvvə qurtara bilməzdi. Qardaş qırğını səviyyəsinə qalxmış qarşıdurmanı dayandıraraq, ölkəni sabit inkişaf və tərəqqi yoluna çıxarıb. Ulu Öndər Heydər Əliyevin xilaskarlıq missiyasının əhəmiyyətini dərindən başa düşən Azərbaycan xalqı tezliklə Onu əvvəlcə Milli Məclisin Sədri, bir neçə aydan sonra isə Prezident seçilməsini dəstəkləyib.

Dövlət idarəçiliyi sahəsində zəngin təcrübəyə və beynəlxalq aləmdə böyük nüfuza malik Ulu Öndər Heydər Əliyev nəinki ölkə daxilində qarşıdurmanı dayandırıb, həmçinin Ermənistanın işğalçı siyasətinin qarşısını alaraq, atəşkəsə nail olub. Bu isə Azərbaycana gərgin vəziyyətdən çıxmağa və sivil inkişaf yolu ilə addımlamağa imkan yaradıb. Ulu Öndər Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə müstəqillik, azərbaycançılıq, dövlətçilik, ədalətlilik, demokratiya, milli tərəqqi, dünyəvilik kimi ümumbəşəri dəyərlər təşkil edən yeni bir ideologiyanın əsası qoyulmuşdur. Heydər Əliyevin apardığı daxili siyasət Azərbaycanın hər bir vətəndaşına azad, sərbəst yaşamaq hüquqlarını təmin etmək və öz rifahını yaxşılaşdırmaq imkanları yaratmaqdan ibarət olub. 1995-ci ildə qəbul edilmiş Konstitusiya Azərbaycan Respublikasının dövlət quruculuğunun əsaslarını qoyub. Azərbaycan demokratik, hüquqi, dünyəvi dövlət kimi, ilk dəfə olaraq, insan hüquqlarının prioritetliyini və hakimiyyət bölgüsünü özünün gələcək inkişafı kimi seçib. 1995-ci ildə müstəqil Azərbaycanın ilk parlamentinə keçirilən seçkilər isə, dövlət müstəqilliyinin möhkəmləndirilməsi prosesinin hüquqi bazasının yaradılmasına daha geniş imkanlar yaratdı.

## ULU ÖNDƏRİN AZƏRBAYCANA RƏHBƏRLİK ETDİYİ İLLƏRDƏ MİLLİ RUH, AZƏRBAYCANÇILIQ MƏFKURƏSİ YÜKSƏLDİ

Məhz Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illərdə bugünki dövlət müstəqilliyimizin möhkəm təməli qoyuldu, milli ruh, azərbaycançılıq məfkurəsi yüksəlməyə başladı, kadr korpusunun milliləşdirilməsi istiqamətində qətiyyətli addımlar atıldı, hər il yüzlərlə gənc müxtəlif mühüm, o cümlədən, hərbi ixtisaslara yiyələnmək üçün SSRİ-nin ən qabaqcıl ali məktəblərinə göndərildi, azərbaycanlılar mühüm dövlət vəzifələrinə irəli çəkildilər. Xüsusi olaraq vurğulayaq ki, Ulu Öndər hakimiyyətdə olduğu illərdə Azərbaycan Ordusunu və onun formalaşması prosesini diqqət mərkəzində saxlayıb. Hələ sovet dönəmində Ulu Öndərin uzaqgörənliyi sayəsində Cəmşid Naxçıvanski adına hərbi məktəbin yaradılması ilə gələcəkdə müstəqil Azərbaycanın Milli Ordusunun formalaşması üçün kadr probleminin həlli yolunda mühüm addım atıldı. Ümummilli Lider Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından sonra da apardığı məqsədyönlü və qətiyyətli siyasət nəticəsində Milli Ordu formalaşdırıldı, Azərbaycanın nizami Silahlı Qüvvələrinin yaradılması ilə bağlı təxirəsalınmaz tədbirlər görüldü, orduda fərarilik hallarına son qoyuldu, hərbi intizam möhkəmləndirildi. Bu gün Azərbaycanın suverenliyini, müstəqilliyini, ərazi bütövlüyünü qorumağa tam qadir olan nizami ordunun formalaşması Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısında göstərdiyi misilsiz xidmətlərdəndir. Məhz o islahatların parlaq nəticəsidir ki, bu gün Azərbaycan işğalçı Ermənistan üzərində qətiyyətli qələbə qazandı. İşğal altında olan tarixi torpaqlarımız işğaldan azad edildi.

Ölkə Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı Cənab İlham Əliyev Ulu Öndərin siyasi kursunun layiqli davamçısı kimi tariximizdə əvəzsiz Zəfərə imza atdı. Ötən 18 ildə Heydər Əliyevin siyasi kursunu bütün sahələrdə uğurla davam etdirən Prezident İlham Əliyevin həyata keçirdiyi güclü dövlət, güclü ordu strategiyası torpaqlarımızın işğaldan azad olması ilə nəticələndi. Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusu Ermənistanın ardıcıl təxribatlarının və yeni işğal planlarının qarşısını almaq, işğal altında olan torpaqlarımızı azad etmək məqsədilə sentyabrın 27-dən etibarən, zəfər yürüşünə başladı. Qırx dörd gün davam edən hərbi əməliyyatlar nəticəsində Azərbaycan Ordusu Ermənistanın 30 il ərzində qurduğu silahlı qüvvələrini darmadağın etdi, uzun illər ərzində işğal altında qalan torpaqlarımızı işğaldan azad etdi. Beləliklə, 44 gün ərzində Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Ordumuz bütün dünyaya öz qüdrətini, gücünü nümayiş etdirdi. Mükəmməl texnologiyamız, döyüş ruhumuzun yüksəkliyi, xalq-iqtidar birliyi, həmrəylik Azərbaycanın qalib dövlət kimi adını tarixə yazdı.

Azərbaycanın Qələbəsi ilə başa çatan Vətən müharibəsindən sonra Prezident İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad olunmuş ərazilərimizdə sürətli yenidənqurma və bərpa işləri həyata keçirilməkdədir. 30 ilə yaxın dövr ərzində xarabazara çevrilmiş torpaqlarımız yenidən qurulur və böyük canlanma müşahidə olunmaqdadır. Bu ərazilərdə ermənilər tərəfindən aparılan şumlama əməliyyatı nəçə əsrlik tarixi olan ölkənin yeraltı və yerüstü sərvətlərinə qarşı yeridilən siyasi taktikadır. Bütün bunlara baxmayaraq, Azərbaycan dağıdılmış, talan edilmiş məkanları bərpa edəcək və bunun üçün artıq dayanıqlı və davamlı iqtisadi fəallığın təmin edilməsinə yönəldilən infrastruktur layihələri reallaşdırılır. Sosial obyektlərin tikilməsi, yaşayış üçün şərait yaradılması, evlərin inşası işləri ardıcıl olaraq həyata keçiriləcək.

Ulu Öndər Heydər Əliyevin müstəqilliyimizin möhkəmlənməsi, xalqımızın rifahının yüksəlməsi, ordumuzun, dövlətçiliyimizin inkişafı sahəsindəki xidmətləri əvəzsizdir. Ona görə də əbədiyyətə qovuşan Ümummilli Lider Heydər Əliyevin əziz xatirəsi xalqımızın qəlbində daima yaşayacaq, heç vaxt yaddaşlardan silinməyəcək. Əbədiyaşar Lider xalqı üçün etdiyi bütün fədakarlıqları ilə hər zaman qəlbi Azərbaycanla döyünən bütün azərbaycanlıların qəlbində ən xoş duyğularla xatırlanacaq.

***ZÜMRÜD BAYRAMOVA***

# "Möhkəm təməllər üzərində qurulmuş güclü dövlətin banisi" mövzusunda konfrans keçirilib



*Dekabrın 8-də Yeni Azərbaycan Partiyası Veteranlar Şurası, Mərkəzi Aparatı və Yasamal rayon təşkilatının birgə təşkilatçılığı ilə ulu öndər Heydər Əliyevin anım gününə həsr olunmuş "Möhkəm təməllər üzərində qurulmuş güclü dövlətin banisi" mövzusunda konfrans keçirilib.*





Konfransda YAP Veteranlar Şurasının üzvləri, YAP Mərkəzi Aparatının əməkdaşları və partiyanın Yasamal rayon təşkilatının fəal gəncləri iştirak ediblər.

Əvvəlcə tədbir iştirakçıları YAP Yasamal rayon təşkilatının inzibati binasında ulu öndər Heydər Əliyevin büstünün önünə gül dəstələri düzüblər.

Konfransda ulu öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Sonra ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətinə həsr olunmuş film nümayiş olunub.

Tədbirdə çıxış edən YAP Veteranlar Şurasının sədri Arif Rəhizadə bildirib ki, ümummilli liderimiz Heydər Əliyev xalqımız və dövlətimiz qarşısında misilsiz xidmətlər göstərib. Ulu Öndərimizin Azərbaycana rəhbərlik etdiyi 30 ildən artıq dövr respublikamızın inkişaf və tərəqqi illəri kimi səciyyələndirilir. A.Rəhimzadə qeyd edib ki, Ulu Öndərin 1969-cu ildə hakimiyyətə gəlişi ərəfəsində respublikamız çox ciddi problemlərlə üz-üzə idi. Amma dahi şəxsiyyət Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra Azərbaycanda bütün sahələr inkişaf etməyə başladı. YAP Veteranlar Şurasının sədri qeyd edib ki, Ulu Öndərin 1993-cü ildə xalqın təkidli tələbi ilə yenidən siyasi hakimiyyətə qayıdışı ilk növbədə, Azərbaycanı parçalanmaqdan, bir dövlət kimi məhv olmaqdan xilas etdi. Heydər Əliyev dühası, Ümummilli Liderin çox böyük nüfuzu və insanları Öz arxasınca aparmaq bacarığı sayəsində Azərbaycanın başının üstünü almış təhlükələr aradan qaldırıldı, ölkəmiz inkişaf yoluna çıxdı.

Tədbirdə məruzə ilə çıxış edən YAP Veteranlar Şurasının üzvü Dilarə Seyidzadə bildirib ki, Azərbaycan xalqı çox xoşbəxtdir ki, onun Heydər Əliyev kimi Ümummilli Lideri var: "Bu gün biz müstəqil ölkənin vətəndaşı olaraq çox çətin yollardan keçmişik. Bu müstəqilliyin qorunması və möhkəmlənməsi Ümummilli Liderin xidmətləri sayəsində mümkün olub. Heydər Əliyev ölkəmizin müstəqilliyini qorumaqla yanaşı, onun inkişafı naminə çox mühüm işlər görüb. Ulu Öndərin bizim üçün miras qoyduğu irs nəsillərdən-nəsillərə ötürüləcək və əbədi yaşayacaq".

Ümummilli Liderlə bağlı xatirələrini bölüşən Dilarə Seyidzadə deyib ki, dahi şəxsiyyət Heydər Əliyev hər zaman bütün dünyada böyük hörmətlə qarşılanıb. Hər bir azərbaycanlı bunu yüksək qiymətləndirməli, onun qoyduğu yolla getmək üçün əlindən gələni etməlidir. Ulu Öndərin həyat və fəaliyyətinin böyük məktəb olduğunu deyən D.Seyidzadə qeyd edib ki, gənc nəsil Heydər Əliyev irsini dərindən öyrənməlidir. "Ümummilli Liderin siyasətini bu gün Prezident İlham Əliyev müvəffəqiyyətlə davam etdirir. Azərbaycan Prezidenti ölkəmizin inkişafı ilə bağlı mühüm işlər görür",- deyə məruzəçi vurğulayıb.

Tədbirdə çıxış edən Yasamal rayon İcra Hakimiyyətinin başçısı Elşad Həsənov ulu öndər Heydər Əliyevin tarixi xidmətlərindən danışıb. O qeyd edib ki, həm sovetlər dönəmində, həm də müstəqillik illərində ümummilli liderimiz xalqımızın və respublikamızın inkişafı, tərəqqisi naminə misilsiz işlər görüb. E.Həsənovun sözlərinə görə, Prezident İlham Əliyevin liderliyi ilə Heydər Əliyev siyasəti ölkəmizdə uğurla davam etdirilir. Bu siyasət davamlı olaraq Azərbaycana nailiyyətlər qazandırır.

YAP Veteranlar Şurasının üzvü Zahid Xəlil çıxışında bildirib ki, ulu öndər Heydər Əliyev tarixi şəxsiyyətdir: "Heydər Əliyevi xatırlayarkən gözümüzün qarşısında müdrik, zəngin təcrübəyə malik, dünya siyasətində seçilən şəxsiyyət canlanır. Ulu Öndər bütün dünyada tanınan şəxsiyyətlərdəndir. Azərbaycanın bugünkü inkişafının təməlində Heydər Əliyevin misilsiz xidmətləri dayanır".

YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov çıxışında deyib ki, ulu öndər Heydər Əliyev bütün həyatını Azərbaycanın inkişaf və tərəqqisinə həsr edib. Azərbaycanda gənclər siyasətinin əsasının Ulu Öndərimiz tərəfindən qoyulduğunu deyən B.İslamov söyləyib ki, müasir gəncliyimizin əsas vəzifələrindən biri Heydər Əliyev irsinin dərindən öyrənilməsidir. Sonda konfrans iştirakçılarının sualları cavablandırılıb.









# Prezidentin "Zəngəzur cədvəli" XƏBƏRDARLIQDIR!



*Ölkə başçısının, cənab Prezident İlham Əliyevin bölgələrə səfəri davamlı xarakter daşıyır və bu səfərlər zamanı verdiyi mesajlar da diqqət mərkəzindədir. Təkcə Azərbaycan xalqı deyil, bütün dünya ictimaiyyətinin diqqət mərkəzində olan bu mesajlar beynəlxalq hüquq normalarına söykənməklə, milli maraqların təmin olunmasında xüsusi əhəmiyyət daşıyır və bu məqam da diqqətdən yayınan deyil.*

Sirr deyil ki, ölkə rəhbərinin verdiyi mesajlar təhlükəsizliyin təminatı, stabillik, əməkdaşlıq, ümumilikdə inkişafın daha da möhkəmlənməsi istiqamətində atılan addımlardandır və Azərbaycanın, Azərbaycan vətəndaşının, dövlətçilik maraqlarımızın təminatı olaraq qiymətləndirilir.

Cənab Prezidentin dekabrın 6-da Qubanın Qonaqkənd qəsəbəsinin sakinləri ilə görüşü zamanı çıxışını Zəngəzur dəhlizi ilə bağlı Ermənistana növbəti mesajı olaraq qəbul edənlər haqlıdırlar. Məsələ burasındadır ki, bu mesaj əvvəlkilərdən daha sərt, daha kəskin bir mesaj oldu. Hətta ölkə ictimaiyyəti, bu çıxışı izləyən hər kəs belə şahidi oldu ki, bu dəfə mesaj daha yeni bir müstəvidə verildi və bir növ şərt kimi də qiymətləndirilir. Daha dəqiq ifadə etmiş olsaq, Zəngəzur dəhlizi ilə bağlı bu dəfə daha sərt şəkildə bəyan edildi və bu dəhlizin açılmasının qarşısıalınmaz olduğu bildirildi. Təbii ki, qarşı tərəf, Ermənistan tərəfi də bundan öz nəticələrini hasil etməlidir, əgər əvvəlki mesajlardan nəticə çıxarmamağın nə ilə nəticələndiyini unutmayıblarsa.

Bildiyimiz kimi, danışıqlar zamanı Azərbaycan İrəvandan tələb edir ki, dəhlizin Ermənistan ərazisindən keçən hissəsində infrastruktur layihələrinin başlamasına dair qrafik tərtib etsin və bu qrafik barədə Bakıya aydın şəkildə məlumatlar versin. Elə məhz Soçidə 26 noyabr tarixində reallaşan üçtərəfli görüşdə qrafikin dəqiqləşdirilməsi üçün Nikol Paşinyan qarşısında şərtlər qoyulduğu da bəllidir. Təbii ki, bu görüşdən sonra üçtərəfli komissiyanın Moskvada görüşü də əbəs yerə deyildi və şübhəsiz ki, bu görüş həmin cədvəllə bağlı iqtisadi aspektləri özündə birləşdirən mövqelərin öyrənilməsinə, bir çox məsələlərin də həllinə hesablanmışdı.

Zəngəzur dəhlizinin açılması ilə bağlı Azərbaycanın Ermənistandan qrafik və cədvəl tələb etməsi sıradan bir məsələ deyil və bunun indi cənab Prezidentin çıxında da öz əksini tapması Ermənistan üçün bir xəbərdarlıqdır. Ermənistan belə xəbərdarlıqlarla dəfələrlə qarşılaşıb və nəticə çıxarmadığı təqdirdə bunun onlar üçün baha başa gəldiyinin də şahididir. Şahididir ki, Azərbaycan Prezidenti, cənab İlham Əliyev etdiyi xəbərdarlığın fonunda verdiyi vədini həyata keçirmək əzmindədir və bunun üçün yetərincə iradəsi var. Təkcə Azərbaycan cəmiyyəti deyil, dünya ictimaiyyəti də Vətən müharibəsi dönəmində bunun şahidi oldu. Şahidi oldu ki, Ermənistan edilən xəbərdarlıqdan nəticə çıxarmadığı halda dəmir yumruqla və nəticədə böyük itgilərlə, hərbçilərinin, hərbi texnikasının, vəsaitlərinin itgisi ilə qarşılaşdı. Təbii ki, bu da Azərbaycan Prezidentinin, Ali Baş Komandanın iradəsini, verdiyi vədləri reallaşdırmaq əzmində olduğunu təsdiqləyir və başda elə Ermənistan tərəfi, bu ölkənin baş naziri, onun hakimiyyəti, erməni xalqı olmaqla hamı, bütün dünya ictimaiyyəti buna əmin oldu.

Zəngəzur dəhlizinin açılması ilə bağlı Azərbaycanın Ermənistandan qrafik və cədvəl tələb etməsi, məhz ölkə başçısının son səfəri zamanı çıxışında bunu bəyan etməsi, özü də dekabrın 15-də Brüsseldə Ermənistanın baş naziri ilə keçiriləcək görüş öncəsi bunu bəyan etməsi də diqqətdən yayınan deyil. Azərbaycanın mövqeyinin dəyişməz olduğu qənaətində olan hər kəs, İlham Əliyevin "Zəngəzur cədvəli" ilə bağlı bəyan etdiklərindən sonra bir də ona əmin oldu ki, artıq Azərbaycanın mövqeyi həm də güclənib və daha güclüdür.

Dəhlizinin açılması ilə bağlı qrafik və cədvəl tələb etməklə əslində, cənab Prezident İlham Əliyev istər Brüssel danışıqlarında, istərsə də Qərb siyasi platformalarının hərhansı birində də Paşinyana qrafik məsələsini xatırladacağını vurğulayıb. Bir növ xəbərdar edib. Bu xəbərdarlıqların da nə demək olduğunu elə Paşinyan özü hər kəsdən yaxşı bilir. Cənab Prezidentin bu səfər zamanı öz çıxışında Vətən müharibəsi zamanı etdiyi çıxışla analogiya aparması da təsadüfi deyil, xatırlatmadır. Bəlкi, ölkə rəhbərimiz, Vətən müharibəsi dönəmində onların torpaqlarımızdan nə vaxt çıxacaqları tarixi göstərmələri barədə məlumat vermələri haqda dediklərini xatırladıb, qeyd edib ki, bu gün də eyni sözü deyir və bildirib ki, belə olan halda, heç bir problem olmayacaq. Yəni, ölkə rəhbərimiz tərəfindən mesaj verilib ki, əks təqdirdə, belə olmayan halda onlar üçün problem olacaq. Bir sözlə, mesajda qeyd olunur ki, rəsmi Bakı ya güc yolu ilə, ya da konstruktiv dialoqla istədiyinə nail olacaq. İndi heç kim, ələlxüsus ermənilərin özü üçün sirr deyil ki, güc yolu ilə nəticə hasil edilməsindən ötrü Azərbaycan Ordusunun bəlli bir resursu kifayət edər. Sirr deyil ki, müqavimət belə göstərməkdən ötrü Ermənistanın silahlı qüvvələrində nə psixoloji hazırlıq, nə döyüş hazırlığı, nə hərbi texnika, arsenal, nə də ümumilikdə vəsait belə yoxdur, çatışmır. Azərbaycan bütün bu sadalananları cəmi 44 günlük müharibə dövründə darmadağın etdi və Ermənistanın silahlı qüvvələri də, silahları da Azərbaycan Ordusunun bir korpusunun, eləcə də həmin korpusun silahları qarşısında acizdir.

Azərbaycan Prezidenti öz çıxışında bəyan etdi ki, bu zamana qədər olduğu kimi, yenə də Azərbaycan hərhansı yolla olur-olsun öz hədəfinə çatacaq. Ölkə başçısı bəyan etdi ki, indi verilən vaxt, edilən xəbərdarlıq, qoyulan şərt Ermənistan üçün tarixi şansdır. Əgər artıq qrafik barədə bəyan edilirsə, bu, Azərbaycanın Ermənistan üzərində daha bir baryeri aşdığı anlamına gəlir və şərtlər, xəbərdarlıqlar təsdiq edir ki, Zəngəzur dəhlizinin açılmasına Ermənistan tərəfi artıq heç bir əngəl törədə bilməyəcək və bu dəhliz açılacaq. Ermənistan tərəfi artıq anlamalıdır ki, müqavimət belə göstərmək yersizdir və istər 10 noyabr tarixli bəyanatın şərtləri, istərsə də Azərbaycanın mövqeyi, üstünlüyü, haqlı və qüdrətli olması dəhlizin ən yaxın zamanda açılacağını şərtləndirir, reallığa çevirir. Cənab Prezidentin "Zəngəzur cədvəli" xəbərdarlıqdır və çox sərt mesajdır. Şübhəsiz ki, bu xəbərdarlığı qarşı tərəf, Ermənistan tərəfi, bu ölkənin elə baş naziri də başa düşür və reallıqla barışmaq məcburiyyətindədir.

***İnam Hacıyev***

# Tengiz Txilava: Gürcü ictimaiyyəti Heydər Əliyevin xatirəsini həmişə əziz tutur



***Bu günlər Azərbaycan xalqı ümummilli lideri Heydər Əliyevi ehtiramla anır. Bu tarixi şəxsiyyətin xidmətlərini gürcü ictimaiyyəti də yaxşı xatırlayır və onun xatirəsini həmişə əziz tutur. Bu sözləri AZƏRTAC-a müsahibəsində gürcü politoloq Tengiz Txilava söyləyib. O deyib: "Ötən əsrin 90-cı illərini yaxşı xatırlayırıq. O illərdə Azərbaycanda və Gürcüstanda əsl anarxiya və xaos idi. Heydər Əliyevin hakimiyyətə qayıdışından və "Əsrin müqaviləsi" deyilən böyük layihənin həyata keçirilməsindən sonra regionda yeni bir era başladı.***

Qərb tərəfdaşları da məhz Heydər Əliyevin sözünə inandılar və bununla da böyük risklərə baxmayaraq çox böyük əməkdaşlıq başladı.

Eyni zamanda, o vaxt Azərbaycanın karbohidrogen ehtiyatlarının məhz Gürcüstan ərazisindən keçməklə Qərbə daşınması haqqında Heydər Əliyevin qətiyyətli qərarı ilə Azərbaycan-Gürcüstan münasibətlərində yeni tarixi dövr başladı. Ənənəvi dostluq və mehriban qonşuluq münasibətlərimiz strateji tərəfdaşlıqla daha da möhkəmləndi.

Bu qərarın reallaşması üçün Heydər Əliyev bir çox maneələri dəf etdi. Bu gün Heydər Əliyevin Gürcüstanın müasir tarixinə verdiyi töhfəni xatırlayanda belə qənaətə gəlmək olar ki, onun xidmətləri bir çox gürcü siyasətçilərinin verdiyi töhfələrdən qat-qat çoxdur. Məhz buna görə də, gürcü ictimaiyyəti Gürcüstanın böyük dostu kimi Heydər Əliyevi ehtiramla anır və onun şəxsiyyətinə dərin hörmət bəsləyir".

# Almaniyada yeni kansler seçilib



***Olaf Şolts Almaniyanın yeni kansleri seçilib. SİA-nın xəbərinə görə, o, İkinci Dünya müharibəsindən sonra ölkənin 9-cu hökumət başçısı olub. Birinci turda qalib gəlmək üçün namizəd səslərin mütləq əksəriyyətini qazanmalıdır. Bu o deməkdir ki, O.Şoltsa ən azı 369 deputat səs verməli idi.***

Qeyd edək ki, sentyabrın 26-da ölkədə keçirilən parlament seçkilərində Almaniya Sosial Demokrat Partiyası 25,7 faiz səslə qalib gəlib. Xristian Demokrat və Xristian Sosial Birliklərinin mühafizəkar bloku isə cəmi 24,1 % səs toplayıb. Seçkilərdən sonra sosial demokratlar, yaşıllar və liberallar yeni hökumət qurmaq üçün danışıqlara başlayıblar. Daha sonra onlar koalisiya sazişi imzalayıblar

Qeyd edək ki, O.Şoltsa Almaniya Bundestaqının 736 deputatından 395-i səs verib.

# 10 dekabr

# Zəfər paradı - "Qarabağ Azərbaycandır" kəlamının nidası!

***Siyasət və döyüş meydanında işğalçı düşməni layiq olduğu yeri göstərilməklə yanaşı, bir daha sübut edildi ki, bizi öz haqq işimizdən heç bir qüvvə çəkindirə bilməz.***




Azərbaycan əraziləri düz 30 ilə yaxın düşmənin ayaqları altında inildəyirdi, işğal altında əzilir və yadların əlində talanırdı. Qarabağımız və ətraf rayonlarımız 1990-cı illərin əvvəllərindən Ermənistanın Azərbaycana qarşı təcavüzkar siyasəti nəticəsində qanlı-qadalı hədəfə çevrilmişdi. Əslində isə mənfur düşmənin işğalçılıq siyasətinə 1980-ci illərin sonlarından başlanılmışdı. O vaxt indiki Ermənistan Respublikasında yaşamış 100 minlərlə azərbaycanlı öz dədə-baba torpaqlarından didərgin salındı, öldürüldü, soyqırımlarına məruz qaldı. Dünya isə susurdu və bu ədalətsizlik beynəlxalq aləmin gözləri qarşısında davam edirdi. Yalnız bütün bunlara baxmayaraq, xalq inanırdı və bilirdi ki, ətrafında birləşdiyi LİDER faktoru torpaqlarımızı murdar düşmən tapdağından azad edəcək - bu inam, bu ümid yaşayırdı, çünki onun reallaşmasına kimsə şübhə etmirdi.

### 200 ildən sonra yazılan yeni və qürurlu tarixi səhifəmiz!

Nəinki Qarabağımız, eləcə də Zəngəzurumuz, Göyçəmiz, İrəvan mahalımız, Vedibasarımız, Zəngibasarımız, Dərələyəzimiz, Basarkeçərimiz Azərbaycanın tarixi torpaqları kimi daim qəlblərimizdə yaşadılmaqda idi və bu gün də yaşayır, yaşadılır. Bax, bu inamın söykəndiyi əyilməz, sınmaz mütərəqqi sahibi var idi - Prezident və Ali Baş Komandan İlham Heydər oğlu Əliyev!

Azərbaycan son 200 illik tarixində itirdiyi torpaqlarını qaytara bilmədiyi bir halda, İlham Əliyevin güclü siyasi iradəsi, qətiyyəti, uzaqgörən siyasəti, vətəninə və torpağına olan nəhəng məhəbbəti, güclü ordumuzun, igid əsgər və zabitlərimizin şücaəti ilə torpaqlarımız işğaldan azad edildi. Bu qələbə ilə Azərbaycan dünyaya sübut etdi ki, özünün pozulmuş hüquqlarını özü bərpa etmək iqtidarındadır və həmin iqtidarını döyüş meydanlarında isbatlamış oldu, sübut etdi ki, Azərbaycan haqqın, ədalətin, ərazi bütövlüyünün bərpası, öz torpağında öz torpağı uğrunda vuruşub. Siyasət və döyüş meydanında işğalçı düşməni layiq olduğu yeri göstərilməklə yanaşı, bir daha sübut edildi ki, bizi öz haqq işimizdən heç bir qüvvə çəkindirə bilməz.

Artıq Dağlıq Qarabağ münaqişəsi yoxdur və Prezident İlham Əliyevin imzaladığı 2 dekabr 2020-ci il tarixli Sərəncamları əsasında hər il 8 noyabrda Zəfər Günü və 27 sentyabr Anım Günü təsis edildi. Bu tarix Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı. Və bu gün qalib Azərbaycanın vətəndaşı olmağımızla qürur duyuruq. Qürur duyuruq ki, uğurlarımızın təməlində xalq-iqtidar birliyi dayanır və 44 günlük Vətən Müharibəsində bu birlik daha da bərkiyərək dəmir yumruğa çevrildi. O dəmir yumruq ki, düşmənin başından vurmaqla belini qırdı. 30 il gözlədiyimiz o möhtəşəm tarixə şahidlik etmək zamanı yetişdi! Sözsüz ki, asan yolla qələbə qazanmaq olmur.

### Zəfər paradı Böyük Vətən müharibəsində faşizm üzərində Qələbə münasibətilə Moskvada keçirilən tarixi hərbi paraddan sonra postsovet məkanında keçirilən ilk qələbə paradıdır

Lakin daha bir möhtəşəm tarix 10 dekabr 2020-ci ildə şahidi olduğumuz möhtəşəmlikdir - QƏLƏBƏ PARADI! Dövlətimizin başçısı İlham Əliyev Laçının işğaldan azad olunması münasibətilə xalqa təbrikində vurğulamışdı ki, döyüş meydanında, siyasi müstəvidə qazandığımız Qələbə ölkəmiz üçün yeni dövr açır. 30 il gözlədiyimiz o möhtəşəm tarixə şahidlik etmək zamanının şahdləri olduğumuz üçün isə xoşbəxtik! Bütün dünyanın gözü qarşısında və cəmi 44 gün ərzində Ermənistan ordusu məhv edildi, hərbi texnikası məhv edildi, canlı qüvvəsi məhv edildi və Azərbaycan öz gücünü, öz qüdrətini göstərdi.

Burada bir vacib məqamı mütləq qeyd etmək lazımdır. Bu Zəfər paradı Böyük Vətən müharibəsində faşizm üzərində Qələbə münasibətilə Moskvada keçirilən tarixi hərbi paraddan sonra postsovet məkanında keçirilən ilk qələbə paradıdır. Daha bir vacib məqam ondan ibarətdir ki, hər iki parad faşizm üzərində Qələbənin paradıdır. Birincisi, alman faşizmi, ikincisi isə erməni faşizmi üzərində Qələbənin paradıdır. Bu parad İkinci Qarabağ müharibəsi adını almış 44 günlük Vətən müharibəsində əldə etdiyimiz Qələbənin parlaq nümayişidir. Bu paradın özünəməxsus xüsusiyyəti, digər paradlardan fərqi var...

### İlham Əliyev 2018-ci ildə deyirdi: "Gün gələcək və bu gün işğal altındakı torpaqlar azad olunandan sonra orada qaldırılacaq Azərbaycan bayrağı Azadlıq Meydanına gətiriləcək və hərbi paradda göstəriləcək"

Prezident İlham Əliyevin hələ 2018-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasının 100 illiyi münasibətilə keçirilən hərbi paradda söylədiyi bu fikirləri xatırlatmaq istərdik: "Gün gələcək və bu gün işğal altındakı torpaqlar azad olunandan sonra orada qaldırılacaq Azərbaycan bayrağı Azadlıq Meydanına gətiriləcək və hərbi paradda göstəriləcək. Biz bu müqəddəs günü yaxınlaşdırmalıyıq və yaxınlaşdırırıq".

Bəli, Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev cənabları hər zaman olduğu kimi öz vədinin üzərində dayandı və sözünü əməli şəkildə sübuta yetirdi!

### Vətən müharibəsinin ilk günlərindən, ilk saatlarından etibarən Azərbaycan xalqı Türkiyənin dəstəyini hiss etdi

Zəfər paradında bir millət, iki dövlət olaraq Türkiyə-Azərbaycan birliyi də nümayiş olundu. Bu gün, sözün əsl mənasında, tariximizə yazılan unudulmaz bir gündür, Türkiyə-Azərbaycan birliyi, Türkiyə-Azərbaycan qardaşlığı günüdür. Paradda vətən mübarizəmizdə şəhid olan azərbaycanlıların sayı qədər türk əsgəri iştirak etdi. Bəli, Türkiyə və Azərbaycanın birliyi qardaşlığın ən gözəl nümunəsidir, tarixi bağlılıqdır. Vətən müharibəsinin ilk günlərindən, ilk saatlarından etibarən Azərbaycan xalqı Türkiyənin dəstəyini hiss etdi. Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğan ilk saatlardan Azərbaycanın haqq işinə öz dəstəyini verdi. Onun açıq, birmənalı və sərt açıqlamaları Azərbaycan xalqını çox sevindirdi. Türkiyənin Azərbaycana verdiyi siyasi və mənəvi dəstək hər bir Azərbaycan vətəndaşını qürurlandırır, sevindirir. Azərbaycan-Türkiyə həmişə sevincli, kədərli günlərində eyni sevinci, eyni kədəri keçirib və bu gün də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycanın Zəfər paradında da iştirak etdi.

### BMT Baş Assambleyasının qətnamələri, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı, Avropa Parlamenti və digər təşkilatlar Azərbaycanın haqq işini dəstəklədi

Daha bir məqam isə budur ki, Zəfər paradı ilə nidası qoyulan hərbi uğurumuzu bərkidən amil uzun illər ərzində davam etdiyimiz diplomatik mübarizəmizdir. Uzun illər ərzində bütün beynəlxalq tədbirlərdə və platformalarda Azərbaycan həqiqətlərini çatdırmaq istiqamətində tərəfimizdən böyük işlər aparılmışdır və bu işin səmərəsi oldu. Bütün aparıcı beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü tanıdı və bunu dəstəklədi. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi, BMT Baş Assambleyasının qətnamələri, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı, Avropa Parlamenti və digər təşkilatlar Azərbaycanın haqq işini dəstəklədi. Beləliklə, münaqişənin həlli üçün hüquqi zəmin yaradıldı məqsədyönlü səylər nəticəsində münaqişə ilə bağlı, Qarabağın tarixi ilə bağlı dünya ictimaiyyətinə dolğun məlumat çatdırıldı, Ermənistanın yalançı təbliğatına son qoyuldu və bütün dünya gördü ki, Qarabağ əzəli tarixi torpağımızdır, Qarabağ Azərbaycandır və 2020-ci ilin 10 dekabr tarixində Azalıq Meydanından necə deyərlər, suyu süzülə-süzülə keçən əzilmiş, yanmış, məhv edilmiş, eləcə də qənimət olaraq ələ keçirilmiş mənfur düşmən texnikaları da dünyanın diqqətindən yayınmadı. Bu, düşmənin rüsvayçı məğlubiyyətinin bariz sübutu oldu. Məhz Qarabağ Azərbaycandır nidası bu tarixdə dünyaya səs salmış oldu.

***Rövşən RƏSULOV***

***Rusiya və ABŞ prezidentləri Vladimir Putin və Co Bayden arasında çoxdan gözlənilən telekörpü şəklində görüş baş tutdu. Görüşün təfsilatı qismən açıqlanır, tərəflər mediaya bacardıqları qədər səthi məlumat ötürürlər, həm də özlərinə sərf edən şəkildə. Hər iki tərəfin açıqlamasından da məlum olur ki, söhbət əsasən Ukraynada baş verən hadisələr ətrafında cərəyan edib. ABŞ prezidenti hərdən Rusiyanı sanksiyalarla hədələsə də, sonda ikitərəfli dialoqun keçirilməsinin davamlı olması üçün Putinin sərt davranışına da dözməli olub.***



# Müharibə havadadır... Dünya Bayden-Putin görüşünü necə şərh edir?

Gündəlikdə duran əsas məsələlər - Ukrayna ətrafında gərginlik, NATO-nun Rusiya sərhədlərinə qədər irəliləməsi, Əfqanıstan, Liviya və Suriyadakı vəziyyət, İranın nüvə proqramı ətrafında






müzakirələr gərgin keçib. Tərəflərin məsələyə özünəməxsus yanaşması, milli maraqlardan doğan fikirlər prezidentləri hərdən üstüörtülü təzyiq dili ilə danışmağa məcbur edib. Amma iki super dövlətin liderləri arasında keçən görüş birjalara da təsirsiz ötüşməyib. Görüşün keçirilməsi investorlarda gələcəyə inam yaradıb və bunun nəticəsidir ki, telekörpü başlayandan sonra Moskva birjasının indeksi 1,66 faiz yüksəlib.

Ağ Evin hesabatına görə, Bayden Rusiya hərbi qüvvələrinin Ukrayna sərhədləri yaxınlığında toplanması ilə bağlı ABŞ və Avropanın narahatlığını Putinə çatdırıb. O, açıq şəkildə bildirib ki, hərbi eskalasiya baş verərsə, müttəfiqlər digər məsələlərlə yanaşı, "həlledici iqtisadi sanksiyalar" və digər tədbirlərlə cavab verəcəklər. Söhbətin bu hissəsinin nəticəsi prezidentlərin Ukraynadakı münaqişənin həlli üzrə dialoqun davam etdirilməsi ilə bağlı razılıq əldə etməsi olub.

ABŞ prezidentinin milli təhlükəsizlik üzrə müşaviri Ceyk Sallivan görüş barəsində açıqlamasında bildirib ki, ABŞ hələ də Rusiyanın Ukraynaya hücum edəcəyinə inanmır. Onun sözləri dövlət katibinin müavini Viktoriya Nulandın səsləndirdiyi mövqe ilə ziddiyyət təşkil edib. İkincinin versiyasına görə, Rusiya bütün quru qoşunlarının yarısı ilə Ukraynaya hücum etməyə hazırdır.

Siyasətçilər bir sıra Qərb və Ukrayna KİV-lərində dərc olunan yazılar fonunda belə qənaətə gəliblər ki, Rusiyanın Ukraynanı işğal etməsi üçün bütün hazırlıqlar yekunlaşıb. Amerika kəşfiyyat xidmətlərindəki mənbələrə istinadən bu barədə ilk yazanlardan biri Bloomberg olub. Jurnalistlərin fikrincə, 2022-ci ildə Moskvanın üç tərəfdən - Krım yarımadasından, Rusiya-Ukrayna sərhədi tərəfdən və Belarus ərazisindən hərbi əməliyyatlara başlayacağı iddia edilir.

Noyabrın 22-də Ukrayna Müdafiə Nazirliyinin Baş Kəşfiyyat İdarəsinin (GUR) rəhbəri Kirill Budanov da Rusiyanın Ukraynaya hücuma hazırlaşdığını açıqlayıb. Avropa İttifaqının xarici siyasət xidmətinin rəsmi nümayəndəsi Piter Stano bildirib ki, Avropa İttifaqının eyni məlumatlara malik olduğu haqda bilgiyə sahibdir. İddia olunur ki, Rusiya taktiki qruplarının əksəriyyəti artıq öz mövqelərindədirlər və guya Rusiya "postsovet dövründə görünməmiş miqyasda" əməliyyat keçirmək üçün ehtiyatda olan hərbçiləri də əməliyyatlarda iştirak etməyə çağırıb.

Kremlin mətbuat xidməti isə Bayden-Putin görüşünün səmimi və işgüzar keçdiyini bildirib. Putin, xüsusən də Ukrayna ətrafındakı vəziyyətə görə məsuliyyəti "Rusiyanın çiyninə" atmamağa çağırıb. O, Kiyevin Minsk razılaşmalarını və "Normand formatı"ndakı razılaşmaları pozan destruktiv hərəkətlərini xatırladıb.

Rusiya prezidenti Baydenə NATO-nun Ukrayna ərazisini işğal etmək üçün təhlükəli cəhdlər etdiyini xüsusi olaraq bildirib. Putin NATO-nun Şərqə doğru genişlənməsindən narahat olduğu üçün ciddi tədbirlər aldığını və bunun üçün bütün variantlar üzərində çalışdıqlarını qeyd edib. ABŞ prezidenti isə Putinə Ukraynanın alyansdan kənarda qalacağına dair öhdəliyi olmadığını bildirib. Bayden qeyd edib ki, heç kimin hərbi bloka hansı dövlətin qəbul edilib-edilməyəcəyini diktə etmək hüququ yoxdur. Bayden Putini əmin edib ki, Ukraynada vəziyyət gərginləşərsə, ABŞ NATO-nun şərq cinahını gücləndirəcək.

Telekörpü zamanı Putin həmçinin Baydenə səfirliklərin fəaliyyəti ilə bağlı bütün mövcud məhdudiyyətləri ləğv etməyi təklif edib. Bayden ilk addım kimi müsadirə edilmiş diplomatik əmlakın vəziyyətini qiymətləndirmək üçün rusiyalı diplomatların ora buraxılmasından danışıb.



Moskva Donbassda təxribatlarla bağlı bütün ittihamları rədd edir və qeyd edir ki, qoşunların hazırlığı ilə bağlı xəbərlər yalandır. Rusiya Xarici Kəşfiyyat Xidməti hesab edir ki, "Vaşinqton rəsmiləri" Rusiyanın guya Ukraynaya hücuma hazırlaşması ilə dünya ictimaiyyətini qəsdən qorxudurlar. Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov da təklif edib ki, Ukrayna tərəfi bu cür bəyanatlarla Rusiyanı qəsdən təxribata çəkir. Çünki Ukrayna "münaqişənin hərbi yolla həllinə" gəlmək istəyir. Üstəlik, Rusiya rəsmiləri Kiyevin özünün münaqişənin gərginləşməsinə səbəb ola biləcəyindən narahat olduqlarını bildiriblər. Peskovun sözlərinə görə, Ukrayna NATO-nun Qara dənizdəki təlimləri, eləcə də regionda getdikcə sayларını artıran Amerika və Britaniya əsgərləri belə bir strategiyanı həyata keçirə bilər.

ABŞ və Aİ Ukrayna ətrafında vəziyyətin gərginləşməsinə görə Rusiyanı yeni sanksiyalarla hədələyib. Rusiya qoşunlarının sərhəddə hərəkəti ilə bağlı heç bir dəlil olmasa da, ABŞ və Aİ Rusiyanın Ukraynaya hücum edəcəyi təqdirdə valyuta mübadiləsini məhdudlaşdıracağını və rəsmi Moskvaya qarşı "daha aqressiv" sanksiyalar tətbiq edəcəyini bildirib. Məhdudiyyətlər Rusiya Federasiyasının ən böyük banklarına və Rusiya Birbaşa İnvestisiya Fonduna (RDIF) təsir göstərə bilər. SWIFT maliyyə ödəniş sisteminə girişin qadağan edilməsi də məhdudlaşdırıcı tədbir kimi qiymətləndirilir. Bundan əlavə, Qərb investorların təkrar bazarda Rusiyanın borc öhdəliklərinin alınmasına qadağanın tətbiqini istisna etmir. İlkin bazarda məhdudiyyətlər artıq qüvvədədir.

Görüşdən dərhal sonra Amerika Konqresinin iki palatası tərəfindən razılaşdırılmış müdafiə büdcəsi layihəsindən anti-Rusiya sanksiyalarının çıxarılması ilə bağlı məlumatlar verilib. Xüsusilə, sənəddə "Şimal axını 2" üzrə sanksiyaların, Rusiyanın dövlət borcuna qarşı tədbirlərin, həmçinin Putinin ətrafındakı 35 rusiyalı məmura qarşı sanksiyaların qaldırılması yer almayıb. Buna baxmayaraq, layihədə Rusiyanın 4 milyard dollar məbləğində hərbi yardımın alınması, habelə Ukraynaya 300 milyon dollar məbləğində hərbi yardımın maliyyələşdirilməsi bəndi saxlanılıb.

**Bəs bu barədə xarici KİV nə yazır?**

### The Wall Street Journal (Nyu York, ABŞ)

THE WALL STREET JOURNAL.

Cənab Bayden Şərqi Avropada gərginliyi azaltmaq üçün digər NATO üzvləri ilə tandemdə işləyir. Rusiyanın Ukraynaya müdaxiləsi Avropa İttifaqı, Qərbi Avropa gücləri və NATO üçün təhlükəsizliyə təhdid yaradan "Soyuq Müharibə" bitdikdən sonra Avropada ən əhəmiyyətli hərbi hərəkətlərdən biri ola bilər.

Moskvanın 2014-cü ildə Ukraynanın Krım yarımadasını ilhaq etməsindən və Ukraynanın şərqindəki silahlı separatçılara dəstək verməsindən sonra Ukrayna Rusiya ilə ABŞ arasında pisləşən əlaqələrin episentrinə çevrilib. Siyasi analitiklərin fikrincə, son vaxtlar gərginlik qaynar nöqtəyə çatıb. Cənab Putin hesab edir ki, Rusiyanın Ukraynaya tarixi ərazi iddiaları var və hesab edir ki, hər hansı NATO müttəfiqinin Ukraynanın qərbyönlü hökumətinə dəstəyi bu cür iddialara birbaşa etirazdır.

### The New York Tines (Nyu York, ABŞ)

The New York Times

Çoxdan gözlənilən danışıqların Rusiyanın sərhədləri yaxınlığında 70 minlik qoşun cəmləşdirdiyi və qüvvələrin hələ də gəlməkdə olduğu Ukrayna ətrafında gərginliyi aradan qaldıracağını söyləmək hələ tezdir. Danışıqların təfərrüatlarını təhlil etmək çətindir, çünki həm Ağ Ev, həm də Kreml onları əlverişli şəkildə təqdim edir.

ABŞ rəsmiləri deyiblər ki, cənab Putin heç bir real niyyət nümayiş etdirməyib və dünyanı təəccübləndirib ki, o, həqiqətən ilin əvvəlində işğal planlaşdırıb, yoxsa böhran uydurmaqla Qərbin diqqətini öz tələblərinə cəlb etməyə çalışır.

Son günlər ABŞ rəsmiləri bəyan ediblər ki, ABŞ Maliyyə Nazirliyi avropalı müttəfiqləri ilə potensial sanksiyaların siyahısını tərtib etmək üçün işləyir. Bu, həm Rusiya şirkətlərinin beynəlxalq kapital bazarlarına çıxışını əngəlləmək, həm də cənab Putinin maliyyələşməsinə və dəstəyinə töhfə verən Rusiya elitasına, xüsusən də oliqarxlara maliyyə sanksiyaları ola bilər.

Sammit "Soyuq Müharibə" dövründə Şərq-Qərb siyasətinə qayıdış hissini gücləndirdi. Çünki NATO-nun keçmiş Sovet İttifaqından işğalın qarşısını almaq strategiyası fərqli reaksiyalara səbəb olur. Moskva özünə hörmət üçün mübarizə aparır. Lakin Ukraynanın Sovet İttifaqının dağılmasından sonra əldə etdiyi müstəqilliyi təhlükə altındadır və cənab Putin SSRİ-nin süqutunu XX əsrin ən böyük geosiyasi faciəsi kimi xarakterizə edir.

### Der Spiegel (Hamburq, Almaniya)

DER SPIEGEL

Rusiya və Amerika prezidentləri arasında ilk virtual görüş təxminən iki saat davam etdi və təbii ki, ilk növbədə bir mövzunu müzakirə etdilər: Rusiya qoşunlarının Ukrayna ilə sərhəddə yerləşdirilməsi... Aydındır ki, danışıqlarda real irəliləyiş olmayıb. Rusiyanın Ukraynanı işğal edə bilməsi riski hələ də var. Amma heç olmasa Bayden və Putin bir-biri ilə danışdılar.



Putinin Baydenlə görüşü müharibə qorxusunu bir az da artırdı. Putinin əslində nə edəcəyi ilə bağlı qeyri-müəyyənlik hökm sürür. Virtual görüş həm də gərginliyi bir qədər azaltmaq və münaqişənin daha da genişlənməsinin qarşısını almaq cəhdidir. Baydenin diqqəti ABŞ-ın daxili siyasətinə və Çinlə qarşıdurmaya yönəlib və indi ona Şərqi Avropada böhran ümumiyyətlə lazım deyil. Rusiya hücum etsə, Bayden 2014-cü ildə Rusiyanın Krımı işğalı zamanı Obamanın sakit duruşunu təkrarlamalı olacaq.

THE TIMES

### The Times (London, Böyük Britaniya)

ABŞ prezidentinin Rusiyanı ciddi iqtisadi sanksiyalarla hədələməsi Ukraynaya hücumdan çəkindirmək üçün kifayət edə bilər. Lakin bu, münaqişəni dayandırmaq üçün kifayət deyil. Dünən Co Bayden Vladimir Putinlə söhbətində barışmaz tona sadiq qaldı... Bu, düzgün mesaj idi.

ABŞ ordusunun Əfqanıstandan xaotik çıxarılmasından sonra cənab Baydenin prezidentliyinin ən çətin xarici siyasət sınağına çevrilən məsələ təkcə Rusiyanın onun sərhədlərinə müdaxiləsi təhlükəsi ilə üzləşə biləcək Ukraynanın taleyi deyil. Milyonlarla ukraynalını evindən didərgin salacaq müharibə ilə yanaşı Avropa təhlükəsizliyi də təhlükədədir. Daha geniş şəkildə desək, Rusiyanın Ukraynaya hücumu anarxik dünya düzəninə qayıdışdan xəbər verən müharibədən sonrakı qaydalara əsaslanan sistemə son qoyacaq. Belə bir hücumun cənab Putinin əsl məqsədi olubolmadığını söyləmək çətindir...

Eyni zamanda, cənab Putin işğalın öz avtoritar rejimi üçün risk olacağına dair illüziyalar saxlamır. Cənab Putinin nə qədər opponentini həbs etməsindən asılı olmayaraq, Ukrayna Rusiyanın müdaxiləsinə müqavimət göstərməkdə davam etdiyi və demokratik və azad olduğu müddətcə, bu, cənab Putinin Qərb liberal dəyərlərinin Rusiya cəmiyyəti üçün yararsız olması barədə uzaqgörən anti-tarixi iddialarına ziddir. Kremlin baxış bucağına görə, buna dözmək çətindir.

THE INDEPENDENT

### The Independent (London, Böyük Britaniya)

Müharibə havadadır... Krımın ilhaqı və Şərqi Ukraynanın və Donbasın qismən işğalı Rusiyanın Ukraynanı azad və müstəqil dövlət kimi görmək planlarına şübhə yaradır... Vladimir Putin Ukraynanı Rusiya Federasiyasının orbitinə qayıtmasından başqa dərdi yoxdur. Bu, vətənpərvər, lakin çətin vəziyyətdə olan rus xalqını sevindirər. Əgər Putin cəzasız qalacağını düşünsə, heç tərəddüd etmədən Ukraynanı işğal edər. Onun belə açıq-aşkar silahlı təcavüz aktından nə dərəcədə qurtula biləcəyinə inanması birbaşa Vladimir Putinin müharibəni alovlandırmaqdansa, Qərbin müqavimət dərəcəsini dərk etməsindən asılıdır.



### Neue Zuercher Zeitung (Sürix, İsveçrə)

Uzun sürən videokonfrans zamanı Amerika prezidenti Kreml rəhbərini sərt sanksiyalarla hədələyib, transatlantik birlikdən danışıb və onu arqumentlərlə inandırmağa çalışıb. Lakin Putin çətin ki, Baydenin Ukrayna münaqişəsində məntiqini başa düşsün. Ukrayna məsələsində Bayden azadlığı müdafiə etməyin onun üçün nə qədər vacib olduğunu indi sübut edə bilər... Görünür, Bayden hələ də öz məntiqi və yaxşı arqumentlərinin köməyi ilə Putini inandıra biləcəyinə inanır. ...

Bununla belə, Kreml rəhbərinin dünyagörüşündə Ukraynanın öz müqəddəratını təyin etmək hüququna yer yoxdur. Putin bu barədə dəfələrlə danışıb. Ona görə də bu münaqişədə Bayden Moskva üçün mümkün qədər ağlabatan və qorxulu təhlükə yaratmağı bacarmalıdır.

Əksər ekspertlər inanmaqda davam edirlər ki, Kreml lideri əslində Ukraynaya genişmiqyaslı işğal planı hazırlamır, lakin təhdidləri ilə Baydeni güzəştə getməyə məcbur etmək istəyir. Buna baxmayaraq, Bayden nə etməyə hazır olduğu barədə diqqətlə düşünməlidir.

**V.VƏLİYEV**

***Zorakılığa məruz qalan uşaqlar üçün psixi problemlər qaçılmaz olur. "Travmanı kimin yaratdığı travmanın növü və şiddəti qədər önəmlidir" deyən mütəxəssislər, uşaq üçün ən sarsıdıcı travmanın ailə tərəfindən törədilən zorakılıq olduğunu vurğulayırlar.***



# Uşaq zorakılığının pərdəarxası məqamları NƏLƏRDİR?

Zorakılıq növündən asılı olmayaraq, şübhəsiz ki, bu travmadır. Travmalar insana zehni və fiziki cəhətdən mənfi təsir göstərən, onu çarəsiz hiss etdirən hadisələrdir.



Travmanın növü və şiddətinin insana göstərəcəyi təsirin nə qədər əhəmiyyətli olması, onu kimin yaratdığı da bir o qədər vacibdir. Uşaqlar üçün ən dağıdıcı travmalar onları qorumaq, nəzarət etmək vəzifəsi olan valideynləri və etibar bağlarının əsasını təşkil edən ailədir. Uşaq həm sosial rollarını öyrənir, həm də davranış modellərini valideynləri və ailəsi vasitəsilə inkişaf etdirir. Ailə, təməl güvən hissinin formalaşdığı və insanın həyatı boyu quracağı bağların təməllərinin atıldığı çox əhəmiyyətli bir quruluşdur. Bu məlumatlara əsaslanaraq, belə nəticəyə gələ bilərsiniz ki, məişət zorakılığının fərd üzərində təsiri kiçik və əhəmiyyətsiz ola bilməz.

Ailədaxili uşağa və ailənin digər üzvlərinə qarşı istənilən növ zorakılığın mənfi təsirləri kifayət qədər yüksəkdir. Travma almış uşaqlarda ən çox görülən dəyişikliklər yuxu və iştahla bağlı əlamətlərdir. Yuxu keyfiyyətinin və nizamlılığının pozulması, gecə kabusları görülə bilər. Anoreksiya və kilo itkisi çox yayqındır. Əhəmiyyətli əlamətlərdən biri əhvalın qəfil dəyişməsidir. Yəni travmatik hadisədən sonra uşağın davranışı əvvəlki dövrlə müqayisədə dəyişir. Narahatlıq səviyyəsi yüksəlir, yeni qorxular yarana bilər, valideynlərini tərk etmək istəməyə bilərlər. Məktəbdə uğur və diqqətdə azalma ola bilər. Bəzi uşaqlar cavab olaraq daha əsəbi ola bilərlər. Daha əvvəl etmədiyi mənfi davranışlar göstərə bilər. Əgər uşaq həm fiziki, həm də psixoloji travmaya məruz qalırsa, onun fiziki inkişafında gerilik müşahidə oluna bilər. Validevnlərinin problem həll etmə üsulu olaraq seçdiyi bu üsulu modelləşdirərək öz sosial həyatında şiddət tətbiq etməyə başlayır. Zaman keçdikcə zorakı davranışlarla bağlı şikayətlər məktəbdən və sosial dairələrdən gəlməyə başlayır. Təcavüzkar valideyninə qəzəblənir və onların ünsiyyəti mənfi istiqamətdə inkişaf edir. Məişət zorakılığının uşağa mənfi təsir göstərməsi üçün onun yalnız uşağa yönəlməsi lazım deyil. Anaya və digər ailə üzvlərinə qarşı zorakılıq da uşağın mənəvi aləmində dərin izlər buraxır. Valideynlərlə münasibətlərində, hətta cinsi rollarında belə ciddi çətinliklərlə üzləşə bilərlər. Əgər təcavüzkar uşağı hədələyibsə və ya qorxudursa, uşaq bunu ailəsi ilə bölüşməkdən qorxa bilər. An-



caq övladları ilə sağlam ünsiyyət quran valideynlər bu məlumatı onlara hansısa formada zərər vermədən öyrənə bilərlər. Yəni "zorakılıq edən hər uşaq evdə zorakılığa məruz qalır" fikri yanlış fikirdir. Bu kimi uşaqlarda iki əsas problemdən danışmaq olar. Bunlardan birincisi sərhəd problemləri, digəri isə impuls nəzarət problemləridir. Sərhəd problemi olan uşaqlar lazım olanda valideynlərindən lazımi rəy almayan uşaqlardır. Valideynlərin təzyiqçi rəftarlarına qarşı, bəzi valideynlər təzyiq və uyğun sərhədlər arasında tarazlıq qura bilməyərək övladlarını sosial normalardan asılı olmayaraq böyüdürlər. Beləliklə sərhədsiz davranışların özünü rahat ifadə edə bilən, özünə güvənən uşaqlar yetişdirdiyini düşünürlər.

**ARAŞDIRMA**

Bununla belə, hər bir valideynin ən əsas vəzifələrindən biri övladını gələcəkdə cəmiyyət tərəfindən qəbul edilmiş, xoşbəxt bir fərd kimi yetişdirməkdir. Bunun üçün onlara sosial normalara uyğun davranmağı və başqalarının azadlıqlarına mane olmayan fərd olmağı izah etməlidirlər. İmpuls nəzarəti problemi olan uşaqlar isə yanlış impulslarını dayandırmaqda çətinlik çəkirlər. Yəni, ağlına gələn hər hansı bir səhvi etməzdən əvvəl özlərini dayandırmaqda çətinlik çəkirlər. Onlar da bu hərəkəti etdikdən sonra peşman olurlar. Bu uşaqların bu məsələdə peşəkar



dəstəyə ehtiyacı var. Çünki zorakılıq normal və məqbul davranış deyil. Bu davranışlar uşağın sosial mühitlərdən kənarda qalmasına və tək qalmasına səbəb olacaq.

Zorakılıq anlayışını fiziki zorakılıq, psixoloji zorakılıq, cinsi zorakılıq və iqtisadi zorakılıq kimi təsnif etmək olar. Ancaq özünü müdafiə edə bilməyən balaca balalarımızın tez-tez qarşılaşdıqları şiddət növü fiziki və psixoloji zorakılıqdır. Hamımızın bildiyi kimi, fiziki zorakılıq, dolayı yolla psixoloji zərər verən fiziki müdaxilələr toplusudur. Psixoloji zorakılıq isə fiziki zorakılıqla birlikdə istifadə oluna bilər və ya təkbaşına təzyiq, hədə-qorxu, alçaldıcı və aşağılama motivləri ilə həyata keçirilə bilər. Uşaqlara fiziki və ya psixoloji zorakılıq tətbiq olunmasından asılı olmayaraq onun törədə biləcəyi təsirlər böyüklərlə müqayisədə ağır nəticələrə səbəb ola bilər. Məsələn, böyüklərdə hədələmək, cinayət törətmək uşaqlarda böyük təsir göstərir. Məsələn, bir insanın məruz qaldığı hücum, bir körpənin kabus görməsinə, psixologiyasının pisləşməsinə və hətta dilini tutmasına səbəb ola bilər.

## Uşağa qarşı zorakılığın şahidi olduqda nə etməliyik?

Söz mövzusu uşaq sizin övladınız ola bilər və ya təsadüfən şa-



h i -
di olduğunuz bir zorakılıq hərəkəti ilə qarşılaşa bilərsiniz. Şahidi olduğunuz hadisə həm də ailə münasibəti ola bilər. Ancaq ailəyə qarışmamaq, problemə düşməmək kimi fikirlərə yol vermədən birbaşa hüquq-mühafizə orqanlarına zəng edin.

**1.** Hadisə yeri barədə məlumat verin və əlaqə məlumatlarınızı hüquq-mühafizə orqanlarının əməkdaşlarına buraxın ki, onlar gəldikdə sizin məlumatlarınıza müraciət etsinlər. Çünki, bəlkə də, uşağın məruz qaldığı qeyri-insani hərəkətlərin səndən başqa şahidi olmayacaq.

**2.** Düşünməməlisiniz ki, uşağa qarşı zorakılıqla bağlı şikayət edə bilərəm. Üstəlik, tutduğunuz vəzifəyə görə cinayət xəbərini verən sizsiniz.

**3.** Zorakılıq hadisəsinə polis müdaxilə etmirsə, müdaxilə edən bölmə tərəfindən polisin yetkinlik yaşına çatmayanlarla iş üzrə bölmələrinə məlumat verilir.

**4.** Zorakılıq edənlərə qarşı cinayət işi başlanacaq.

**5.** Bu müddət ərzində zorakılıq törədən şəxslərin uşağa yaxınlaşmasının qarşısı alına, zərurət yarandıqda hətta digər ailə üzvlərinə belə təhvil verilməyərək mülki idarələrin səlahiyyətinə aid olan ictimai obyektlərdə yerləşdirilə bilər. Uşağın xeyrinə ailə üzvlərinə təhvil vermək mümkün olmadıqda, uşaq tamamilə dövlətin himayəsi altına alınacaq.



**Psixoloq Fərqanə Mehmanqızı:** ”Uşaqlara qarşı fiziki və psixoloji təzyiq ailədaxilində və sosial mühitdə də var. Bu gün nə qədər danışsaq da, nə qədər tədbirlər keçirilsə də ailədaxili şiddətin qarşısını almaq mümkün olmur. Lakin bu hadisələri azaltmaq, hər hansı bir cəmiyyətdən yox etmək mümkündür. Ailədaxilində uşağa qarşı olan şiddət daxili aqressiyadan, empati bacarığının aşağı düşməsindən irəli gəlir. Çox vaxt bunu iqtisadi durumla da uyğunlaşdırırlar ki, sosial-iqtisadi vəziyyətdə insanlarda daxili



aqressiya baş verir və bu da ailə münaqişəsinə gətirib çıxara bilir. Hətta valideynlərin bir-biri ilə münaqişəsi də sonunda uşağa qarşı şiddətlə nəticələnə bilir. Şiddət istər psixoloji, istərsə də depressiv ola bilir, bunlar da özünə görə hər hansı bir travmalarla nəticələnə bilir. Çox maraqlıdır ki, ailə daxilində uşağın aldığı fiziki və psixoloji şiddət gələcəkdə sosial mühitdə uşağın özündə hər hansı bir travma, şəxsiyyət pozğuntusu, ikili davranışla da özünü göstərə bilir. Özgüvənsizlik, özünü təsdiq edə bilməmək böyük eqo, nadinclik və s. kimi özünü göstərə bilir. Ailədaxili şiddətin uşaqlara vurduğu travma hər uşağa fərqli şəkildə təsir edir. Elə uşaq var ki, travmanı rahat keçirir, şəxsiyyətin formalaşması dövründə xarakterdə hər hansı bir zədə ilə atlata bilir. Elə uşaq da var ki, bu travmanı ömürlərinin axırına qədər axsaqlıq, əksiklik kimi daşıya bilir və bunu da sosial mühitə gətirib çıxarır. Onlar sosial mühitdə aqressiya olur, ətrafa qarşı şiddət, özünəqapanma, özünü sosial mühitdə tapa bilmirlər. Nəticədə isə assosiallıq yaranır, bu isə sosial şəbəkədə daha çox vaxt keçirməyə, telefon oyunları, telefona bağlılığa gətirib çıxarır. Çünki, uşaq orada artıq özünü tapmış olur. Eləcə də sosial mühitin şiddəti uşaqlarda intihara gətirib çıxarır. Buna da fakt olaraq görürük ki, uşaq intiharı çox artıb”.

**Sosioloq Əhməd Qəşəmoğlu:** ”Bu cür uşağa qarşı şiddətin artması gözlənilən haldır. Çünki, Azərbaycan ailəsi heç vaxt indiki qədər gərginlik içində olmayıb. Əgər bizdə 100 nikaha qarşı 30-dan artıq boşanma düşürsə bu o deməkdir ki, ailədaxilində şiddət var. Yəni, ancaq maddi vəziyyəti pis ailələrdə boşanma olmur. Deməli belə ailələr uşaqlar üçün namünasib bir yerdir. Gərgin ailə, ata və ana bir-biri ilə dalaşanda və ya şiddət olduqda bu uşağa da təsir edir və beləliklə uşağa qarşı da təzyiq, şiddət artır. Bu əksinə də ola bilər ki, uşaqların özünün formalaşmasına pis təsir edir və bu uşaqlar küçədə başqasından şiddət görürlər və yaxud valideynlər elə bir davranışa malik olurlar ki, uşaqları başqa uşaqlara zərər verirlər, şiddət göstərirlər. Ona görə də bu cür ailədaxili münaqişələrin artması





halında uşaqların şiddət görməsi də təbiidir. Biz bunun qarşısını almalıyıq, çünki, valideynin problemi uşaqların problemi deyil, bu xalqın gələcəyinin problemidir. Əgər ailələrdə belə gərginlik varsa, uşaqlar belə gərginlik içində böyüyürlərsə onlara qarşı şiddət artırsa, axı bu xalqın gələcəyinə də güclü mənfi təsir edir. Bu məsələr barəsində güclü tədbirlər görülməlidir ki, ən azından bu hallar azalsın”.

**Psixoloq Aytən Ələkbərli:** ”Ümumiyyətlə məktəbəqədər yaş dövrü 3 yaşdan 6 yaşa qədər müddəti əhatə etdiyinə görə bu müddətdə uşaq böyük inkişaf yolu keçərək fiziki cəhətdən diqqəti cəlb edəcək dərəcədə inkişaf edir və möhkəmlənir. Burada baş-beyin sinir sisteminin, bədənin ayrı-ayrı hissələrinin keyfiyyətcə funkisional təkmilləşməsi baş verir. Bu zaman artıq uşaq orqanizmində sümükləşmənin xeyli sürətlə getməsinə baxmayaraq onun skelet sistemində hələlik bərkiməyən hissələr olur və bu dövrdə də beyinin kütləsinin çəkisi təxminən 1350 qrama çatır. Sinir sistemində birləşdirici, əlaqə yaradıcı tellər də inkişaf edir və möhkəmlənir. Bu zaman görürük ki, uşaqlarımızda fiziki və psixoloji cəhətdən bəzi zorakılıqlar olur. Daha sonra isə biz onları nəzarətə götürsək baxarıq ki, hətta ilk siniflərdə bir-birinin oxumasına belə



psixi zorakılıqla cavab verəcək jestlər, mimikalar göstərirlər. Bu jest və mimikalar daha sonra fiziki zorakılığa da gətirib çıxarır”.

**Psixoloq Vüsalə Əmiraslanova:** ”Uşaq zorakılığının əsas səbəbi narkoman ailələrdə olur, yəni ailədə hansısa üzv narkomandırsa və yaxud da həbsxanaya düşübsə, ailədə narkomaniya varsa belə uşaqlarda uşaq zorakılığı daha geniş yayılıb. Lakin uşaqlar fiziki olaraq problemsiz ola bilərlər, amma psixoloji olaraq çox gərginlik yaşayırlar. Bu onların yeniyetməlik dövründə və ya daha böyük yaşlarında da özünü göstərir. Ümumiyyətlə zorakılığın müxtəlif növləri var, bunlardan biri də istismardır. İstismara uğrayan uşaqlar təhsildən kənar qalırlar, özlərini dəyərsiz kimi hiss edirlər. Əgər hər hansı bir uşaq cinsi zorakılığa məruz qalıbsa bu onların gələcəkdə travma almasına gətirib çıxarır. Bu problemlər uşaqda ünsiyyət problemi, özünəqapanma, aqressiya yaradır. Onlar gələcəkdə ailə sahibi ola bilmirlər. Kişilərdə qadınlara qarşı, qadınlarda isə kişilərə qarşı nifrət yaranır. Bunun əslində səbəbləri müxtəlifdir, sadəcə zorakılığa məruz qalan uşaqların fiziki durumlarından daha çox psixoji durumları daha çox zədə alır”.



***Rüqəyyə Orucova***

# Ermənistanın mina xəritələrini verməməsi NƏYƏ HESABLANIB?

“Ermənistan tərəfindən mina xəritələri təqdim edilsə belə doğruluq ehtimalı çox aşağıdır. Qarşı tərəf bunu əllərində olan xəritənin bundan ibarət olduğunu deməklə məsələdən yayınmağa çalışırlar”. Bu fikirləri SİA-ya açıqlamasında politoloq Züriyə Qarayeva deyib.




Politoloq qeyd edib ki, müharibə qaydalarına görə, basdırılan minalar xəritələrdə öz əksini tapır: ”Bu həm qarşı tərəfə təqdim edilmək üçün, həm də həmin bölgədə müharibə bitdikdən sonra özlərinin təhlükəsizliyi üçün, eyni zamanda basdırılan minaların sonradan yerinin dəyişdirilməsi üçün mütləq şəkildə icra olunur”.

Z.Qarayeva vurğulayıb ki, Ermənistan tərəfi digər məsələlərdə olduğu kimi mina xəritələrində də sabotaja cəhd edir: ”Düşünürəm ki, həmin xəritələrə qarşı yalnız 16 noyabr diversantlarının təhvil verilməsi düzgün addımdır. Qarabağda tutulan terrorçular daha ciddi məsələlərdə barter obyekti olmalı, o zamana qədər isə həmin diversantların taleyi ilə bağlı qərarın öz ölkəmizə aid olduğu mesajı verilməlidir. Qarabağ Azərbaycan ərazisi olduğu üçün həbs edilən cinayətkarların da taleyini Azərbaycan qanunvericiliyi müəyyən edə bilər”.

***Aysel Məmmədova***

# Sergey Belokonev: “Sanksiyalar artıq Qərb ölkələrinin daimi xarici siyasət alətidir”



Rusiyalı politoloq, dosent, Rusiya Hökuməti yanında Maliyyə Universitetinin Sosial Elmlər Fakültəsinin elmi direktoru Sergey Belokonev ”Caliber” analitik mərkəzinə müsahibəsində Qərbin Şərqi Avropa və Qafqazla bağlı siyasəti haqda fikirlərini bildirib. Müsahibəni təqdim edirik.

***- Sergey Yuryeviç, sizcə, Belarus-Polşa sərhədində miqrasiya böhranına hansı amillər səbəb oldu?***

- Miqrasiya böhranının səbəbi Qərb dövlətlərinin və NATO hərbi blokunun dünyanın müxtəlif yerlərində, indiki halda Yaxın Şərqdə və postsovet məkanında həyata keçirdiyi xaos siyasətidir. Müəyyən dərəcədə bu, Belarus rəhbərliyinin 2020-ci ildə daxili proseslərə Qərbin kənar müdaxilə cəhdlərinə və sonradan suveren Belarus dövlətinə qarşı sanksiyalara cavabıdır. Lukaşenkonun miqrasiya faktorundan öz maraqlarına uyğun istifadə etməsi məntiqlidir. Belarus-Polşa sərhədində baş verən faciəli hadisələrin mühüm səbəbi Yaxın Şərq ölkələrində qeyri-sabitlikdir. Bu bölgədə gedən müharibələr və dağıntılar nəticəsində qaçqın axını azalmır.

***- Aİ-nin Belarusa qarşı sanksiyaları davam edəcəkmi?***

- Təəssüf ki, sanksiyalar artıq bir sıra ölkələrin, ilk növbədə Qərb ölkələrinin daimi xarici siyasət alətidir. Bu, beynəlxalq münasibətlərdə böhrandan və əsas qlobal platformanın-BMT-nin səmərəsizliyindən xəbər verir. BMT-nin ABŞ-dan ənənəvi olaraq neytrallığı dəstəkləyən Avropa ölkələrindən birinə verilməsi məsələsinin gündəmə gətirilməsi təcilidir. Belarusa qarşı sanksiyalar hələ bir müddət davam edəcək, lakin onlar yalnız ölkə sakinlərinə göstərir ki, prezident Lukaşenko onların maraqlarının və təhlükəsizliyinin əsl müdafiəçisidir və ona inam artır.

***- Sanksiyaların qarşısını nə ala bilər?***

- Sanksiya dilindən uzaqlaşmaq olar, lakin qısa müddətdə deyil və yalnız Qərb və NATO ölkələri Rusiya və Belarusla qarşıdurmadan imtina etdikdən sonra.

***- Sizcə, yeni hökumətin gəlişi ilə Almaniyanın Cənubi Qafqazla, xüsusən də, Azərbaycanla bağlı siyasəti ciddi şəkildə dəyişəcəkmi?***

- Almaniya kansleri Angela Merkelin hakimiyyətinin başa çatması ilə xarici siyasət böyük ehtimalla öz subyektivliyini itirməkdə davam edəcək, daha çox ABŞ və Britaniyadan olan ”atlantistlər”in təsiri altına düşəcək. Lakin yaxın gələcəkdə bu, Cənubi Qafqaza çətin ki, təsir edəcək, çünki Almaniya bu regionda son onilliklərdə ənənəvi olaraq qeyri-aktiv olub.

***Tərcümə - Elçin Bayramlı***

# Alban mətbuatı "Səs" Media Qrupuna istinad etdi!

***Corc Sorosa bağlı USAİD təşkilatının Azərbaycana qarşı oynadığı kirli oyunlarının ifşası Tirananın "Patriotik" nəşrində dərc olunub***

"Səs" qəzeti və Media Qrupu (SİA) olaraq milyarder və "inqilablar mühəndisi" kimi tanınan, bir sıra ölkələrdə çevrilişlər törətməklə, insan dəhşətləri üzərində kapital toplayan Corc Sorosun, eləcə də onun eyniadlı fonduna bağlı olan USAİD kimi təşkilatlarının Azərbaycana qarşı fəaliyyətlərini əks etdirən kifayət qədər yazılarımızla, dəlillərə və sübutlara əsaslanan məqalələrimizlə çıxışlar edib, barəsində ifşaedici materiallar yayımlamışıq.







O cümlədən, Sorosun ABŞ-dakı əlaltıları kimi tanınan Samanta Pouer, həmçinin Delina Fico vasitəsi ilə ölkəmizdə oynamağa çalışdıqları oyunları haqqında da kifayət qədər məlumatları ictimai rəyin diqqətinə çatdırmışıq. Albaniyanın Patriotikmedia.com nəşrində gedən istinadlı yazını link olaraq təqdim edirik:

https://patriotikmedia.com/2021/06/29/usaid-po-luftonte-korrupsionin-duke-promovuar-korrupsionin/

***Rövşən RƏSULOV***

# Erməni hiyləgərliyinin həyasızlıq dərəcəsi



***Ermənistan hakimiyyətinin yalanları, bu ölkənin məhvinə səbəb olan, bundan sonra da məhvə sürükləyən strategiyası erməni xalqının, sıravi ermənilərin narazılıqlarına səbəb olur və Ermənistan vətəndaşları bir-birinin ardınca etiraz aksiyaları keçirir. Hazırda Ermənistanda hökm sürən vəziyyəti ermənilər özləri belə kabus adlandırırlar və vəziyyətin necə sürətlə pisləşdiyini etiraf da edirlər. Bitib-tükənməyən yalanlar, hökm sürən aclıq, səfalət, bir çoxlarının şəxsi maraqları, ambisiyaları naminə erməni xalqının dəfələrlə rastlaşdığı dəhşətli fəlakətlər, bir çoxlarının öz maraqlarına uyğun olaraq səhnələşdirdikləri Soyqırım nağılları Ermənistanı çökdürməkdə davam edir.***

Hansısa, şər qüvvələr adlandırdıqları güclərin, qüvvələrin müxtəlif çirkin oyunlarının qurbanına çevrilən erməni xalqı faciəsini görməməzlikdən artıq gələ bilməz. İndi Ermənistanda saysız-hesabsız ailələr var ki, bu çirkin oyunların nəticəsində yaxınlarını, əzizlərini itiriblər. Ermənistanın təxribatlarına cavab oilaraq ərazilərimizin işğaldan azad edilməsi uğrunda savaş zamanı Azərbaycan Ordusunun qarşısında cəmi 44 gün davam gətirə bilməyən Ermənistan tərəfi, bu ölkənin silahlı qüvvələri diz çökdü, çoxlu itgilərlə qarşılaşdı və hələ də erməni xalqı bununla barışa, bunu həzm edə bilmir ki, bu da anlaşılandır. Çünki, separatçıların işğalçılıq siyasəti sayəsində erməni ailələrinin bir çoxları itgi verib və hətta çoxları öz yaxınlarının, əzizlərinin cəsədlərini belə ala bilmirlər.

Təhlil

Ölən erməni hərbçilərinin cəsədlərinin ailələrinə təhvil verilməsi ilə bağlı artıq işğalçı ölkədə dəfələrlə etiraz aksiyaları keçirilib və hələ də keçirilməkdə davam edir. Bu barədə Ermənistana məxsus mətbuat səhifələri də kifayət qədər informasiyalar yayırlar. Yəni, heç kim üçün gizli deyil ki, bu günə qədər öz yaxınlarının cəsədlərini almayan çoxlu sayda erməni ailəsi var və tələblərinə məhəl qoyan da yoxdur. Baxmayaraq ki, müharibənin bitməsindən bir ildən artıq vaxt keçib, hələ də ermənilər 44 günlük müharibədə iştirak edən yaxınlarının cəsədlərini ala bilməyiblər. Hətta, həmin ailələr yaxşı bilirlər ki, cəsədləri bundan sonra da ala bilməyəcəklər, çünki Ermənistan hökumətinin hərbçilərə münasibəti də onlara bəllidir, üstəlik müharibə dövründə verilən yalan məlumatlar da. Bir növ artıq ermənilər bu yalanlara alışqandırlar, öyrəncəlidirlər və yaxşı bilirlər ki, itgin düşən hərbçilər bartədə yalan məlumat vermək bu işğalçı ölkədə adi hal hesab olunur. Hətta, müharibədə məğlubiyyətlə qarşılaşdıqlarını etiraf etmək məcburiyyətində qalan Ermənistanın siyasi-hərbi rəhbərliyi dedikləri yalanları nəinki etiraf etdilər, bunun onlar üçün qəbuledilən, adi hal olduğunu belə etiraf etdilər. Belə olan halda hansısa erməni ailəsi bu rejimdən, bu hakimiyyətdən hansı cavabı gözləməlidir və buna nə dərəcədə inana bilər?

Yenə də itkin düşən hərbçilərin yaxınları İrəvanda etiraz aksiyası keçirməyə davam edirlər. Ötən gün hökumət binası yaxınlığında aksiya keçirən, həmçinin Tiqran Mets prospektinin Nazirlər Kabinetinin binasına bitişik hissəsini bağlayan həmin o itkin düşən hərbçilərin yaxınları bu gün, 8 dekabr tarixində də Milli Məclisin binası qarşısında etiraz aksiyası keçirirlər. Onlar Ermənistan Milli Məclisinin sədri Alen Simonyanın onların yanına gəlməsini və itgin düşənləri fərari adlandırmaq istəyinə və təklifinə görə cavab verməsini tələb edirlər.

"Dünəndən evə getmirik, bütün gecəni burada, Ermənistan parlamentinin girişində keçirmişik", deyə itkin düşən hərbçinin qohumu Arsen Qukasyan dekabrın 8-də news.am saytına müsahibəsində bildirib. O, Milli Məclisə daxil olan deputatları gördüyünü deyib. Qukasyan izah edib ki, sual konkret olaraq parlamentin spikeri Alen Simonyanın açıqlamaları ilə bağlıdır. Etirazçı deyib ki, əgər Simonyan açıqlama veribsə, gəlsin, cavabı da özü versin və ona deyiləcək çox şeylər var. Bu faktı Ermənistana məxsus mətbuat səhifəsi yazır, biz yox. Belə çıxır ki, Ermənistanın Milli Məclisi itgin düşən erməni hərbçisini fərari adlandırmaq fikrindədir?

Çox absurd bir vəziyyət hökm sürür Ermənistanda. İtgin düşənləri, ölənlərin cəsədlərini taparaq valideynlərinə, yaxınlarına təhvil vermək əvəzinə onları fərarilikdə ittiham edənlər indi nə ağıla qulluq edirlər? Müharibənin bitdiyi, başa çatdığı gündən bu zamana qədər minlərlə erməni hərbçisinin cəsədi tapılsa da, minlərlə tapılmayan, hələ də axtarışda olanlar var. Hələ də hərbçi övladının, yaxınının, qohumunun vəziyyəti barədə xəbərsiz olan, cəsədini ala bilməyənlər saysız-hesabsızdır Ermənistanda. Onlar öz yaxınlarının heç olmasa cəsədini təhvil vermək tələbi ilə çıxış edirdilər, təbii ki, nəticədə heç nə ala bilməsələr də.

Artıq, başda elə həmin o itgin düşən, cəsədləri qaytarılmayan hərbçilərin yaxınları olmaqla, erməni xalqının vəziyyəti daha acınacaqlı istiqamətə yön alıb. İndi erməni cəmiyyəti öz hökuməti, Milli Məclisi tərəfindən hədəfə alınır və bir növ borclu çıxarılır. Təsəvvür etmək belə mümkün deyil ki, bu hiyləgər hökumət indi hansı oyunu oynayır və bu dəfə kütlənin ağzını birdəfəlik yummaq niyyətindədir. Deməli, bu vaxta qədər itgin düşən hərbçi yaxınlarını itirənlərə bəyan edilir ki, onların itgin düşən yaxınları fərari çıxıb, hətta satqın belə ola bilər.

Ermənistan parlamentinin spikerinin video yazısı yayılıb bu ölkə mediasında və orada bu ölkənin spiker deyir ki, onun üçün artıq itgin düşənlər yox deməkdir. Onun həyasızlıq dərəcəsindən adamın tükləri biz-biz olur və yaranan ikrah hissini belə dilə gətirmək, sözlərlə təsvir etmək mümkünsüzdür. Bu artıq hiyləgərliyin, simasızlığın və şərəgsizliyin pik nöqtəsi, maksimum həddidir, ən azından qəbul olunan qaydalara, beynəlxalq aləmə görə. Ola bilsin ermənilər üçün bu hələ maksimum hədd deyil və daha hansı səviyyədə həyasızlıq nümayiş etdirə bilərlər, bunu özləri daha yaxşı anlayarlar. Çünki, öz simalarına özləri dah yaxından bələddirlər və elə etirazçılar da yəqin məhz buna görə Simonyanın boğazından tutmaq fikrindədirlər.

Həqiqətən çox dəhşətli mənzərə yaranıb Ermənistanda və bunun acısını yenə də sıravi ermənilər, erməni xalqı dadır. Bir il bundan öncə baş verənlər yaddan çıxan deyil və xatırladığımız kimi, Ermənistan tərəfi məğlub olmasına rağmən daim qələbə xəbərlərini çatdırır və bundan çəkinmirdi də. Yalançı, illərlə öncə çəkilən kadrları erməni cəmiyyətinə sırıyaraq mövqelərini qoruyub saxladığını bəyan edirdilər. Hərbçilərin valideynləri hardan bilə bilərdilər ki, bu nağıllara qulaq asıb qürrələndikləri zaman onların övladları qırğına verilir, yaxşı halda da "iti qovan kimi" onları qovur Azərbaycan Ordusu. Bunu biləndə də artıq gec idi və oyunbazlar artıq minlərlə ermənini oyunlarına qurban etmişdilər, hansıki sonra onların heç cəsədlərini belə sahiblərinə, yaxınlarına vermədilər. Verə də bilməzdilər axı. Heç zaman diri halda olan hərbçisini nəzərə almayanların, onları qırğına verənlərinin öz hərbçisinin cəsədini axtaracağı, tapıb yaxınlarına təhvil verəcəyi inandırıcı da deyil. Üstəlik bir də erməni xislətli olanda buna ümid etmək belə sadəlövhlük olardı ki, bu sadəlövhlüyü isə ermənilərdə axtarmağa dəyməz. Onlar özlərininkilər tərəfindən axmaq yerinə qoyula bilərlər, amma sadəlövh olmaları barədə söyləmək olmaz və görünür elə bu səbəbdən də hökumətlərinin hiyləgərliklərinə dərhal reaksiya verir, buna etiraz edirlər. Bilirlər ki, həyasızcasına qarşı tərəfi ittiham etmək baxımından dırnaqarası "qabiliyyət" bu işğalçı ölkə hakimiyyətinə, elə erməni xislətinin özünə xas olandır.

İtgin düşənlərlə bağlı bütün məsələlərdə daxili auditoriyaya hesablanan addımları görməmək mümkün deyil və elə əvvəldən də bunu hər kəs bilirdi. Bilirdi ki, müharibədə məğlubiyyətlərin gizlədilməsi, yalan məlumatlar yayılması, itgin düşənlər barədə məlumat verilməməsi hamısı Ermənistanın daxili auditoriyasına hesablanmışdı və məqsəd də bəlli idi. Bəlli idi ki, Ermənistan hökuməti əvvəla uğursuzluqlarını, məğlubiyyətini erməni cəmiyyətindən gizlədir. Digər tərəfdən o da aydın idi ki, ölənlər barədə doğru olan məlumatı verməkdə maraqlı deyil. Əksinə, sonradan bəlli oldu ki, döyüşə qatılan, sonra əlaqə kəsilən, itgin düşən erməni hərbçilərinin adları siyahıda belə yox imiş. Maraqlı məqamdır, deyilmi? Təsəvvür edək ki, yaxınları hərbçini döyüşə göndərir, o da döyüşdə iştirak edir, amma itgin düşüb axtarıldığı zaman onun adı bir dənə də olsun dəftərdə, bircəcik siyahıda belə olmur. Bu hansı məntiqə sığışır? Hiyləgərliyin həyasızlıq dərəcəsi desək buna güman edirəm ki, bizi qınamazlar. Əlbəttə ki, əvvəlcədən düşünülmüş bir hiyləgərlik idi bu və Ermənistan tərəfi nəticənin necə olacağından asılı olmayaraq itgilərini gizlətmək üçün əvvəlcədən belə bir hiyləgərliyə əl atmışdı ki, ölənlərin sayını az göstərmək mümkün olsun. Amma xatırlatmaq istərdik ki, bu qədər hiyləgərliyə sahib olan erməni az da olsa ağıla sahib olsaydı, indi bu qədər itgilərlə qarşılaşmazdı. Ağıllı olsaydı bilərdi ki, haqq-ədalət, həqiqət öz yerini tutacaq və hiyləgərliklə əldə etdiklərini geri vermək məcburiyyətində qalacaq, özü də itgilərlə.

***İnam Hacıyev***

# Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunda tunellərin inşasına başlanılıb



***Oktyabr ayının 26-da Azərbaycan və Türkiyə prezidentləri tərəfindən təməli qoyulan Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun (Zəngəzur dəhlizi) tikintisi sürətlə davam etdirilir. SİA-nın məlumatına görə, yeni inşa edilən yol boyunca layihə çərçivəsində zəruri yerlərdə ortalama ümumi uzunluğu 6 km təşkil edən 3 avtomobil tunelinin inşası nəzərdə tutulub ki, bu istiqamətdə artıq tikinti işlərinə start verilib. Tunellər şərti olaraq T1, T2 və T3 adlandırılıb.***



Uzunluğu 1019 metr təşkil edən T1 tuneli üzrə 250 metr, uzunluğu 1810 metr təşkil edən T2 tuneli üzrə isə 50 metr qazma işləri aparılıb. Qazma işləri partlatma və qırıcı üsulları ilə davam etdirilir. Eyni zamanda qaya qruntlardan ibarət hissələrin kənarlaşdırılması da həyata keçirilir. İnşasına yenicə başlanılan və uzunluğu 3171 metr təşkil edən T3 tunelinin giriş hissəsində tikinti işləri tamamlanaraq qazma işlərinə start verilib.

Uzunluğu 123.8 kilometr olan Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolu (Zəngəzur dəhlizi) boyunca 2 viaduk və 23 avtomobil körpüsü, 8 yol ötürücüsü, 50 yeraltı keçid, 5 yerüstü keçid, suların ötürülməsini təmin etmək məqsədilə 400 dairəvi boru və düzbucaqlı su keçidi, həmçinin kommunikasiya xətləri üçün 60 ehtiyat keçidinin inşası nəzərdə tutulub ki, bu işlərin icrası da sürətlə davam edir. Belə ki, görülən işlər çərçivəsində ehtiyat keçid tikintisi 30%-i yerinə yetirilib, 38 dairəvi, 2 düzbucaqlı süni qurğu tikilib, 10 körpünün təməl və svay işləri görülüb.

Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolu (Zəngəzur dəhlizi) Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində dövlətimizin başçısının tapşırığı ilə icra olunan və işğaldan azad edilmiş rayon və kəndlərin sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq yol infrastrukturu layihələrindən biridir. Çünki sözügedən yol Hacıqabul-Horadiz-Ağbənd-Zəngəzur dəhlizi magistral avtomobil yolunun bir hissəsi olmaqla, Zəngilanı Azərbaycanın digər rayonları və Naxçıvan Muxtar Respublikası ilə birləşdirmək baxımından çox böyük əhəmiyyətə malikdir.

Avtomobil yolu başlanğıcını Füzulinin Əhmədbəyli kəndindən götürməklə layihələndirilib. Dövlətimizin başçısının tapşırığına əsasən avtomobil yolu Qarabağın inkişaf planı nəzərə alınmaqla 6 və 4 hərəkət zolaqlı olmaqla I texniki dərəcəyə uyğun inşa edilir. Yolun ilk 80 kilometrlik hissəsi 3 gediş - 3 gəliş olmaqla 6, qalan 43.8 kilometrlik hissəsi isə 2 gediş - 2 gəliş olmaqla 4 hərəkət zolaqlı olması nəzərdə tutulub.

Hazırda avtomobil yolunun ilk 110 kilometrlik hissəsində torpaq işləri icra olunur. Belə ki, xüsusi texnikalardan istifadə olunmaqla yolun genişləndirilərək profilə salınması və I texniki dərəcəyə uyğun yeni torpaq yatağının inşası işləri həyata keçirilir. Hərəkət zolaqlarına uyğun olaraq yol yatağının eni müvafiq olaraq 29.5 və 21.5 metr təşkil edəcək.

Tikinti işləri "İnşaat Norma və Qaydaları"nın tələblərinə əsasən, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin rəhbərliyinin nəzarəti altında həyata keçirilir.

Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolu (Zəngəzur dəhlizi) işğaldan azad edilmiş Füzuli, Cəbrayıl və Zəngilan rayonlarının ərazisindən keçir və hazırda inşası aparılan Əhmədbəyli-Füzuli-Şuşa, Şükürbəyli-Cəbrayıl-Hadrut və Xudafərin-Qubadlı-Laçın avtomobil yolları başlanğıcını məhz bu yoldan götürür.

BÜTÜN YOLLAR QARABAĞA APARIR...





# ANAMA-NIN SƏDRİ: Ciddi narahatlığımız mövcuddur



***"Məlum olduğu kimi ötən həftə Ermənistan tərəfi Azərbaycan Respublikasının işğaldan azad olunan digər müəyyən ərazilərinin mina sahələrinin formulyarlarını da Azərbaycan tərəfinə təqdim edib. Mina sahələrinin formulyarlarında adətən ərazinin koordinatları, basdırılmış minaların növləri, sayları, ara məsafələri, basdırılma və gizlətmə qaydalarına dair məlumatlar qeyd olunur. Lakin, bildirmək istərdim ki, təqdim edilmiş formulyarlarla ilkin tanışlıq onların etibarsız, yararsız və qeyri-dəqiq olması təəssüratını yaradır". Bunu SİA-ya açıqlamasında ANAMA-nın İdarə Heyətinin sədri Vüqar Süleymanov deyib.***

Onun sözlərinə görə, məlum olduğu kimi, Ermənistan tərəfi müvafiq beynəlxalq məhkəmə işləri çərçivəsində məsuliyyətdən yayınmaq məqsədi ilə bütün mina sahələrini əhatə edən formulyarların verildiyi iddiası ilə çıxış edir. Ancaq, Ermənistan tərəfindən təqdim edilmiş formulyarların işğaldan azad edilmiş bütün əraziləri tam şəkildə əhatə etməsi ilə bağlı da ciddi narahatlığımız mövcuddur: "Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) və Azərbaycan Respublikasının Müdafiə Nazirliyi tərəfindən formulyarlar üzərində təhlil və emal işlərinə artıq başlanılıb. Formulyarların təhlil edilməsindən sonra məlumatlar xəritələr üzərinə köçürülərək, müvafiq ərazidə uyğunluğu yoxlanılacaqdır.

Qeyd edək ki, Ermənistan tərəfindən Ağdam, Füzuli və Zəngilan rayonları üzrə öncə verilmiş mina sahələri üzrə məlumatlarının dəqiqliyi 25% təşkil edir. Təqdim olunan formulyarlar hərtərəfli şəkildə təhlil olunduqdan sonra onların nə dərəcədə dəqiqliyi və hansı əraziləri əhatə etdiyi barədə ictimaiyyətə əlavə olaraq məlumat veriləcəkdir".



# Sevinc Osmanqızının prezidenti Paşinyandır

ABŞ-da yaşayaraq ermənipərəst dairələrdən bəslənərək davamlı şəkildə ölkəmizə, dövlətçilik maraqlarımıza qarşı çıxan, açıq-aşkar düşmənlərimizin maraqlarına nökərçilik edən, eləcə də xarici kəşfiyyat dairələrinə işlədiyi sübut edilən Sevinc Osmanqızı növbəti dəfə öz satqın xislətini nümayiş etdirdi. Bu dəfə sosial şəbəkə üzərindən Ermənistanın baş naziri Nikol Paşinyana təriflər yağdıran bir şəxsin sözlərindən az qala göylərə pərvazlanan Osmanqızı ona zəng edən tamaşaçının-məsləkdaşının fikirlərinə ”Kaş ki, Nikol Paşinyan prezidentimiz olaydı”, deyə dəstəyini göstərib. SİA xəbər verir ki, Sevinc Osmanqızının doğulduğu, çörəyini yediyi, atasının uğrunda həlak olduğu ölkəsinə və dövlətinə, şəhid övladlarına qarşı bu qədər iyrənc münasibət bəsləməsi həm də onu sübut edir ki, yalnız bu subyekt deyil, onun kimi xarici ölkələrdə oturub düşmən çörəyi ilə zəhərlənənlər Azərbaycana qarşı ermənidən də betər qənim kəsiliblər.



Eyni zamanda, belələri hər an, hər dəqiqə mənfur düşmənlərimizə nökərçilik etməyə hazır olduqlarını demək olar ki, günaşırı sübuta yetirirlər. Əslində, bu görüntülərdə ”sözün bitdiyi an” ifadəsinin tam yeridir. Buna rəğmən dövlətinə, xalqına, şəhidlərinin müqəddəs ruhlarına hörmət bəsləyən istənilən vətənsevər şəxs ən azı bu kimi ünsürlərə qarşı içindən gələn sözlərini ərz etmək istərdi. Bəli, bu acı və hiddət doğuran faktı görən, eşidən əsl azərbaycanlı yumşaq desək, Sevinc Osmanqızına ürəyindəkiləri boşaldar, onu ən ağır təhqirlərə ”qonaq” edərdi. Bunu Osmanqızının özü də bilir, həm də çox yaxşı bilir. Elə ona da bu lazımdır ki, sonra ağaları olan erməni lobbisinə göstərib Azərbaycan xalqının əsəbləri ilə necə oynadığını sübut etsin və əvəzində kirli pullarını qazansın.

REPLİKA + VİDEO

Əslində, Sevinc Osmanqızının əməllərindən təəssüflənməyə və təəccüblənməyə dəyməz. O zatən düşmən maraqlarına xidmət etdiyini daha əvvəllər də nümayiş etdirib və bu, onun növbəti nümayişidir. Belə isə adıçəkilən ünsür getsin açıq-aşkar Nikol Paşinyanı özünə rəsmən (!) ”lider” elan eləsin və bununla ermənidən betər erməni olduğunu da rəsmən təsdiqləsin. Onsuz da belə zir-zibillərin Azərbaycan cəmiyyətindən təmizlənməsinə ehtiyac var...

***Rövşən RƏSULOV***

# Radikal müxalifətin milli maraqlarımıza zidd mövqeyi hiddət doğurur

***Xəbər verildiyi kimi, dekabrın 1-də bir qrup radikal müxalifətçi Bakının Fəvvarələr meydanında hazırda həbsxanada aclıq aksiyası keçirən Gədəbəy Rayon İcra Hakimiyyətinin keçmiş başçısı Saleh Rüstəmlinin azadlığa buraxılması tələbi ilə qanunsuz aksiya keçirməyə cəhd göstəriblər.***

Qeyd edək ki, radikal müxalifət tərəfindən həyasızcasına ”siyasi məhbus” kimi təqdim edilən Saleh Rüstəmli sırf törətdiyi cinayət əməlinə görə məsuliyyətə cəlb olunub.

Sözügedən aksiya Bakı Şəhər İcra Hakimiyyəti ilə razılaşdırılmayıb. Aksiyanın icazəsiz olmasından tutmuş etiraz üçün şəhərin mərkəzinin seçilməsinə, eləcə də, ölkənin, cəmiyyətin belə bir hüznlü günündə etiraz piketi keçirilməsi təbii ki, olduqca yalnış bir addımdır. Həmçinin hazırda pandemiya dövrüdür və ona görə də bu cür aksiyaların qarşısı qətiyyətlə alınmalıdır.

Dünyanın diqqətinin helikopter qəzasına görə Azərbaycana yönəldiyi bir vaxt radikal müxalifətin bundan yararlanaraq aksiya keçirməyə çalışması təbii ki, onların məkrli niyyətlərindən xəbər verir. Belə ki, bu aksiyanı keçirməkdə məqsəd heç də Saleh Rüstəmlini müdafiə etmək deyil, əksinə radikal müxalifət bu vəsilə ilə özünə diqqət çəkmək istəyir.

Başqa ölkələr şəhidlərimizə görə bizə başsağlığı mesajı göndərərkən, dağıdıcı müxalifətin aksiya keçirmək cəhdi mənəvi-əxlaqi dəyərlərimizə zidd addımdır. 14 şəhid zabitimizin dəfn olunduğu bir gündə - polisin və ictimai təhlükəsizliyi təmin edən qüvvələrin işinin onsuz da çox olduğu bir vaxtda belə bir aksiya ümummilli faciəni fürsətə çevirmək cəhdi idi.

## Ə.Kərimli niyə hay-həşirdədir?

**Və yaxud AXCP sədrinin nankor niyyəti ürəyində qaldı**

AXCP sədri Əli Kərimli bu günlərdə şəxsi ”Facebook” səhifəsində sözügedən aksiya ilə bağlı paylaşdığı məlumatda Azərbaycan hökumətinə qarşı növbəti dəfə böhtan atıb. O, qeyd edib ki, Saleh Rüstəmliyə azadlıq tələbi ilə keçirilmiş aksiyada hökumət maksimum dərəcədə qəddar davranmağa çalışıb. Təbii ki, hökumətə şər atmaq Ə.Kərimlinin köhnə adətidir. Çünki, AXCP sədri siyasi cəhətdən tam müflis olduğunu anlayır. Ə.Kərimli hakimiyyətə gəlmək üçün tək çarəni cəmiyyəti aldatmaqda görür. O, hay-həşirdədir, ancaq artıq alınmır. Onun hər bir şər-böhtanı xalqımızda böyük nifrət yaradır. Xalq hökuməti dəstəkləyir, Ə.Kərimlinin həyasız davranışlarını, onun siyasi mövqeyini pisləyir, qəti şəkildə rədd edir. Nankor məqsədi ürəyində qalan Ə.Kərimli uzun müddətdir ki, nə qədər çox çalışsa da, cəmiyyətdə çaşqınlıq yarada bilmir.

Azərbaycanın dünyada nüfuzu günügündən artdıqca müxalifətin dərdi-qəmi də artır. Dünya dövlətləri Prezident İlham Əliyevin təşəbbüslərinə, fikirlərinə, yürütdüyü güclü siyasətə dəstək verdikcə radikal müxalifət, xüsusilə ermənipərəst Əli Kərimli, qondarma ”Milli Şura”nın sədri Cəmil Həsənli və onların trolları - Azərbaycana həmişə mənfi münasibət bəsləyən Qənimət Zahid, Sevinc Osmanqızı və digərləri Azərbaycan dövlətinə şər-böhtan atmaqda davam edirlər.






**"Demokratiya forumu" - oyun, yoxsa vasitə?**

RÖVŞƏN
rovsen.rasulov@mail.ru

***Baydenin hakimiyyətə gələr-gəlməz Kapitoliya divarları arasında yeni "demokratiya" oyunu qurması artıq ilk baxışdan belə nəticəyə gəlməyə zəmin yaratdı ki, "bu aş o aşdan deyil", ya "duzu" çoxdur, ya da ki, "yağı". Hər iki halda da ziyanlıdır, zərərlidir, hətta siyasi cəhətdən xolesterinlidir. Belə "demokratiya" ABŞ siyasi mərkəzinə bağlı olan ölkələrin "mədələrini" deşə, "qara ciyərlərini" isə zədələyə bilər. Yanılmadınız, söhbət ABŞ-da keçiriləcək "Demokratiya forumundan" və oraya dəvət alan ölkələrin həmin forumdan ala biləcəkləri nəsiblərindən gedir. Hətta deyərdim ki, nə yaxşı Azərbaycan həmin tədbirə dəvət almayıb və orada iştitak etmir, əks halda amerikalıların demokratiya oyunları bir vasitə olaraq bizə də sırınacaqdı - nəticələri isə bəri başdan məlumdur.***

Sirr deyil ki, Qərb demokratiyası ənənələrinin nüvəsi məhz Vaşinqtondadır və orada hansı siyasi baxışların - istər respublikaçıların, istərsə də demokratların hakimiyyətdə oturmalarından asılı olmayaraq həmin ənənə davam etdirilir. Sözügedən ənənənin ”narıncı” Ukraynada, ”qızılgüllü” Gürcüstanda, eləcə də ”ərəb baharı” adlandırılan küləyin əsdirdiyi digər ölkələrə necə ”hədiyyələr” bəxş etdirdiklərini də unutmamışıq. Həmin faktlar barədə də uzun-uzadı yazmağa ehtiyac yoxdur, kor-kor, gör-gör. Əgər bu gün vaxtilə Amerikanın verdiyi vədlərinə görə cürətlənən və nəticədə ərazi bütövlüyü pozulan, Abxaziyası və Cənubi Osetiyası işğala məruz qalan Gürcüstan hələ də düşdüyü bu vəziyyətindən çıxa bilmirsə səbəbini Qərb demokratiyasından soruşmalıdır. Əgər Ukrayna Krımı, Donbası itiribsə, yenə də Qərb demokratiyasının yaxasından yapışaraq hesabını sormalıdır. Və əgər ”Demokratiya forumuna” dəvət alan Ermənistan iqtisadi bataqlıq burulğanlarında məhvə doğru sürüklənirsə, ermənilər kütləvi şəkildə ölkələrini tərk edirlərsə, respublika deməк olar ki, siyasi məhvə doğru sürüklənirsə bunun da günahını Qərb demokratiyasından görməlidirlər.

Bütün bunlardan sonra Azərbaycanın öz müstəqil siyasətini aparması, özünün demokratik ənənələrini həyata keçirməsi və heç kimdən asılı olmayaraq, kimsənin diktəsi alltına düşməyərək istənilən yerdə sözünü deməsi əlbəttə ki, Kapitoliyanın başbilən demokratlarının xoşlarına getməyib və guya bizdən qisas almaq üçün Bakını bu foruma dəvət etməyib. Qonşumuz Ümbülbəyim xala demişkən, iki gözümüz atırdı ”demokratiyanız” üçün...

Artıq indidən o da məlum olur ki, ”Demokratiya forumu” həm oyundur, həm də vasitədir, hətta əvvəlcədən hazırlanmış buxovdur ki, salınacaq orada iştirak edəcək ölkələrin boyunlarına. Bax, həmin buxov sonra da istənilən tərəfə dartılacaq, yəni Qərb demokratiyasının görünməyən, qaranlıq və nəticəsi bəlli olmayan tərəflərinə doğru...

Nə deyim, Allah bizi belə ”demokratiyalardan” hifz etsin!

## *"Azərbaycan öz milli-mənəvi kökləri üzərində inkişaf etməlidir"- İlham Əliyev*



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

***Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği: dövlət müstəqilliyimizin bərpasının 30-cu ili- Azərbaycan dövlətçiliyi müasir mərhələdə" istiqaməti çərçivəsində hazırlanıb.***

# Avropa dəyərləri bizə nə verir: nə itiririk, nə qazanırıq?

Son dövrlərdə cəmiyyətimizdə bəzi qüvvələr tərəfindən milli-mənəvi dəyərlərə qarşı hücumlar artıb. Öz əxlaqını, vicdanını, namusunu, dəyərlərini qoruyan insanlara Söylü demiş belə birtəhər baxırlar. Bunu konkret kimlər edir, Şərif demişkən "subutalni, dokumentalnı" sizə deyə bilmərəm, amma necə və niyə edir bu haqda bəzi mülahizələrim var.

**Milli-mənəvi dəyərlər elmi-texniki inkişafa mane olurmu?**

Avropa, Qərb dəyərləri adı altında bəzi beynəlxalq və yerli mərkəzlər tərəfindən bizə sürətlə və ardıcıl sırınan dəyərlərin mənəvi tərəfləri faciədir. Bu mənəvi deqradasiyanın Qərb cəmiyyətlərini hansı sosial-mənəvi nəticələrə gətirib çıxardığı haqda çoxsaylı faktlar və elə Qərb tədqiqatçılarının bu mövzuda ciddi əsərləri var.

Bəli, etiraf etməliyik ki, qloballaşma prosesində birtərəfli inteqrasiya ciddi problemlərə yol aça bilər. Bəzi dairələr bəzi Qərb ölkələrinin iqtisadi və texniki inkişafını əsas götürüb bizim də onların mənəvi dəyərlərini qəbul etməyimizə çağırırlar. Bunu çox vaxt maddi, texnoloji inkişafla bağlayıb deyirlər ki, görürsünüzmü, Qərb ölkələri mənəvi dəyərləri kənara qoyublar deyə necə inkişaf ediblər.

Lakin bir ağıllı çıxıb onlara tək bir Yaponiyanı, Çini nümunə göstərəndə boğazları quruyur. İndi necə izah etsinlər ki, yaponların, çinlilərin timsalında bir şərq xalqı öz dəyərlərini, mədəniyyətini, dinini, ənənələrini, əxlaqını qoruyaraq da dünyanın ən inkişaf etmiş xalqına çevrilə bilir. Tərslikdən də, Çin və Yaponiya Qərbdə yox, Şərqdə yerləşirlər. Qısası, bu arqumentə, necə deyərlər bir quş.

**İnsan hüquqları, yoxsa anarxik əxlaqi deqradasiya?**

İkinci arqument insan hüquqları adı altında cəmiyyətimizə sırınan dəyərlərdir. Məsələn, qadın hüquqları, uşaq hüquqları, cinsi azlıqların hüquqları və s. Mən başa düşmürəm, bizim cəmiyyətdə qadınlar, uşaqlar, xəstələr kimsə tərəfindən əzilirmi? Psixi xəstələr tərəfindən edilən tək-tük kriminal hərəkətləri nəzərə almasaq, xeyr!

Kişilərin həmişə onlara diqqətlə, qayğıyla, fədakarlıqla yanaşdığını görmüşük. Azərbaycan qadını həm evinin, ailəsinin xanımı olub, həm də cəmiyyətə xeyirli ictimai fəaliyyət göstərib. Qadın azadlığı budur, indi kommersiya TV-lərində, internetdə, seriallarda təbliğ olunanlar deyil. Məncə, bir xanımın elmi ixtiralar etməsi üçün onun ictimai yerlərdə yarıçılpaq gəzməsi və ya müxtəlif kişilərlə qeyri-qanuni münasibətlərdə olması tələb olunmur.

Bizim ailə institutumuzda və cəmiyyətimizdə qadının, qızın öz layiqli yeri var. Amerikalı və avropalıya azərbaycanlı kişinin öz anası, xanımı, bacısı, qızı uğrunda düşünmədən canını qurban verməsi bəlkə qəribə gələr, amma bizdə bu, müzakirəsi belə mümkün olmayan avtomatik reaksiya hesab olunur. Bizdə uşaqlar döyülüb öldürülürmü? Xeyr! Sadəcə valideyn bəzən tərbiyəsi pozulmasın deyə uşağına qulaqburması verir. Əks halda, həmin uşağın axırı hippiyə, emoya, ən yaxşı halda cinayətkara və ya narkomana çevrilər. Uşağını qorumaq, onun pozulduğunu gördükdə cəzalandırmaq valideynin borcu və haqqıdır.




Məgər dövlət cinayət törədən vətəndaşı cəzalandırmırmı? Məgər bəzi qayda və qanunlar, tələblər havayı yerəmi qoyulub? Niyə valideynin öz uşağını danlamağa, qulaqburması verməyə haqqı çatmamalıdır? Bəlkə 15 yaşlı qızcığaz gecə saat 3-də pritondan atasına zəng eləyib desin ki mənim bəzi vacib işlərim var, özüm kefim istəyəndə evə gələcəm? Xeyr, bunlar hüquq deyil, anarxiyadır, mənəvi deqradasiyanın kulminasiyasıdır. Kəsəsi, bu arqumentə də bir quş.

**Cinsi azlıqların üstün hüquqları olmalıdır?**

İndi isə keçək yad dəyərlərin təbliğatçılarının ən yaralı yerlərindən birinə- cinsi azlıqların hüquqları məsələsinə. Bizim cəmiyyətdə cinsi azlıq nümayəndəsi şallaqlanırmı, ya da küçədə döyülürmü? Xeyr! Sadəcə, onlar cəmiyyətə nümunə göstərilib başa çıxarılmır. Onlara vəziyyətdən asılı olaraq ya xəstə kimi, ya da əxlaqi cəhətdən pozğun adam kimi baxırlar. Ən əsası onlar digər vətəndaşların istifadə etdiyi bütün sosial və sair hüquqlardan yararlanırlar. Bəlkə onlara, eyni işə görə normal adamlardan az maaş verilir, bəlkə onlar əmlak, sosial təminat, əmək hüququ məsələlərində ayrı-seçkiliyə məruz qalırlar? Xeyr.

Yaxşı, bəs onda nə deyib bizim ailə institutumuzu dağıtmaq, cəmiyyət əxlaqını dəyişmək istəyirlər? Çətin sualdır. Bunu bir zəhmət bu işlə ciddi məşğul olan beynəlxalq və yerli təşkilatların rəhbərlərindən soruşun. Mən imkan düşdükcə soruşuram ki, boğazları qurusun...

Dəyərlər dəyişib, dəyişir, dəyişəcək. Amma bu dəyişmə mütləq mənfi istiqamətdəmi olmalıdır? Müsbətə doğru dəyişmək olmazmı? Məgər mənəvi keyfiyyətlər maddi nemətlərdən istifadə, elmi-texniki inkişaf üçün problem yaradır? Yuxarıdakı nümunələrdə gördüyümüz kimi, yaratmır!

Deməli, inkişaf üçün milli-mənəvi dəyələri itirməyə, onu yad dəyərlərlə əvəzləməyə ehtiyac yoxdur. Hər mədəniyyətin özünün psixoloji-ruhi-mənəvi dəyərlər sistemi var. Texnoloji inkişafın bura heç bir dəxli yoxdur. Olsaydı, konservativ Yaponiya və ideoloji Çin ilə novator Amerika və rasional Avropa arasında elmi-texnoloji cəhətdən fərqlər çox olardı.



Mənə şəxsən aydın deyil, inkişaf etmək üçün mənəvi dəyərləri başqa sivilizasiyadanmı qəbul etməliyik, özümüzünkü yaramırmı? Yaramırsa, niyə misal üçün Sovet dövründə, həm dəyərlər qorunurdu, həm də ictimai, sosial, mədəni, elmi, texnoloji inkişaf gedirdi? Elə indi də, milli-mənəvi dəylərlərimiz elmi-texniki inkişafımıza heç bir problem yaratmır.

**Milli-mənəvi dəyərlər üzərində inkişaf strategiyası**

Prezident İlham Əliyev çıxışlarında özünün və dövlətin bu məsələdəki qəti və konkret mövqeyini dəfələrlə aydın şəkildə ortaya qoyub. Bəzi sitatları əlavə edirik.

"Biz milli-mədəni dəyərlərimizi gələcək nəsillər üçün qorumalıyıq ki, Azərbaycanın davamlı, uzunmüddətli inkişafı təmin edilsin. Biz öz köklərimizə həmişə bağlı olmalıyıq və gənc nəsil də bu ruhda tərbiyə almalıdır. Çünki bu gün qloballaşma prosesi gedir. Bəzi ölkələr qloballaşma adı altında öz təsir dairələrini genişləndirmək, xalqları bir növ öz milli köklərindən ayırmaq, qoparmaq, o tarixi bağları qırmaq istəyirlər. Budur bunun təməlində dayanan əsas məqsəd.

Əlbəttə ki, indi qloballaşma deyəndə bəziləri bunu inteqrasiya, dünyanın yeni inkişaf modeli kimi qələmə verirlər. Ola bilər, müsbət məqamlar da var, onları mən inkar etmək istəmirəm. Ancaq, eyni zamanda, açıq-aydın görünür, bu siyasətlə böyük dairəyə hakim olmaq, təsir imkanlarını genişləndirmək istəyirlər ki, xalqlar öz köklərindən ayrılsınlar, öz əcdadlarını, tarixlərini unutsunlar, sadəcə amorf, kosmopolit bir kütləyə çevrilsinlər ki, onları istənilən istiqamətə göndərmək mümkün olsun. Ona görə milli ruhda tərbiyə almaq hər bir gəncin borcudur. Bu gün Azərbaycan müasir, inkişaf edən ancaq öz köklərinə sıx bağlı olan dövlət və cəmiyyətdir. Həmişə də belə olmalıdır. Nə qədər ki, bizim hökumət iqtidardadır, bu, belə olacaq. Ölkəmizin müstəqil həyatı üçün bu, əsas şərtdir...

...Mən bir dəfə demişəm, biz haraya inteqrasiya etməliyik? "Stop İslam!" deyənlərə? Haraya inteqrasiya etməliyik, qadınla kişi arasında fərq görməyənə? Mən artıq daha dərinə getmək istəmirəm. Biz qətiyyən oraya inteqrasiya etməyəcəyik...

...Bəzi hallarda belə sözlər işlədilir ki, biz inteqrasiya etməliyik, Avropaya inteqrasiya etməliyik. Mən artıq dəfələrlə demişəm, biz heç yerə inteqrasiya etməməliyik. Biz öz milli dəyərlərimiz üzərində möhkəm dövlət, bütün ölkələrlə bərabərhüquqlu münasibətlər qurmuşuq. Xüsusilə indiki ayrı-seçkilik, islamafobiya dövründə inteqrasiya etməyə heç bir ehtiyac yoxdur". Hesab edirik ki, əlavə şərhə ehtiyac yoxdur.

Azərbaycan mənəvi yox, elmi dəyərlərə inteqrasiya edə bilər

Dövlətimiz də milli-mənəvi ideoloji baza üzərində inkişaf siyasəti yürüdür. Bunun da çox yaxşı nəticələri olacağına şübhə yoxdur. 1-ci və 2-ci Qarabağ müharibəsində canını vətən və xalq uğrunda qurban verən gənclərimiz hansı tərbiyəni almışdılar? Əlbəttə ki, milli-mənəvi dəyərlərlə tərbiyə olunmuşdular. Onların arasında qulağı sırğalı, başı kəkilli, kalqotkla şalvarlı, güllü köynəkli, "azad seks" tələb edən, qərb dəyərlərinə inteqrasiya etmiş gənclərə heç rast gəlmədik. Geyim, düşüncə azaddır deyib keçməyəcəyik, hər şey elə geyimdən, davranışdan, düşüncədən başlayır.

Göründüyü kimi, Azərbaycan dövlətinin bu məsələdə rəyi ölkə ictimaiyyətinin rəyi ilə eynidir. Elə bu istiqamətdə aparılan siyasət də bu tezisin üzərində qurulub. Nəticə olaraq deyə bilərik ki, əgər bizim bəzi ölkələrdən öyrənəsi olduğumuz nələrsə varsa, onların da bizdən öyrənəcəyi nələrsə var. Həqiqi inteqrasiya budur.

Bizim elmi, texnoloji, vətəndaş cəmiyyəti kimi məsələlərdə dünyanın inkişaf etmiş ölkələrinə inteqrasiya olunmağımız lazımdır, amma bunu mənəvi-əxlaqi məsələlərlə bağlı demək mümkün deyil.

Yuxarıda göstərdiyimiz kimi, "müasir" dəyərlərin Qərb cəmiyyətlərini çox ağır mənəvi deqradasiyaya məruz qoyduğu, ailə institutunu dağıtdığı beynəlxalq təşkilatların hesabatlarında aydın şəkildə göstərilib. Yazıya əlavə etdiyimiz infoqrafik xəritədə Avropa ölkələrində nigahdan kənar doğulmuş və valideynsiz böyüməkdə olan uşaqların ölkələr üzrə faizi göstərilib. Qərbə doğru getdikcə vəziyyətin necə pis olduğu aydın görünür. Bu kimi onlarla sahədə statistik və analitik hesabatlar var, lakin burada sizi yormaq istəmirik, onsuz da hamı bunları bilir.

Qloballama isə yalnız bütün cəmiyyətlər tərəfindən qəbul edilən bəşəri dəyərlər üzərində qurulmalıdır, hansısa cəmiyyətin öz dəyərlərini bütün dünyaya qəbul etdirilməsi üzərində yox.

Bəli, Azərbaycan öz qədim, möhtəşəm milli-mənəvi dəyərləri üzərində öz inkişafını davam etdirir. Dövlətimiz dünyaya məvəvi dəyərlərini, milli mədəniyyətini müasir elmi-texniki inkişafla bir arada tutan bir Azərbaycan modeli təqdim edir. Azərbaycan bu gün dünyaya belə numunəni göstərə bilən cəmi bir neçə ölkədən biridir. Dünyanın bizdən öyrənəcəyi çox şey var.

***Elçin Bayramlı***

SƏS
9 dekabr
2021-ci il

«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR




1 .Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Kaspi Mətbuat Yayım – 0125106196, 0502685868
9. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

# “Real”da tarixi rekord:




***Madrid "Real"ı, UEFA Çempionlar Liqasında daha bir ilkə imza atıb. Belə ki, "kral klubu" buna ötən gecə qrup mərhələsinin 6-cı turunda "İnter"lə matçda (2:0) qalib gəlməklə nail olub.***

Komanda bu turnirdə vurduğu qolların sayını 600-ə çatdırıb. Madrid təmsilçisi belə nəticə qazanan ilk klub kimi tarixə düşüb. ”Real”ın ən yaxın izləyiciləri ”Bavariya” (546 qol), ”Barselona” (537), ”Mançester Yunayted” (398) və ”Yuventus”dur (333).

Qeyd edək ki, ”Real” D qrupunda 15 xal toplayaraq 1/8 finala vəsiqə qazanıb.

# “Qarabağ” Konfrans Liqasında ən yaxşı onluqda

Futbol üzrə UEFA Konfrans Liqasının qrup mərhələsinin 5 matçında və yerli çempionatlarda ən yaxşı nəticə göstərən komandaların siyahısı açıqlanıb. Bu barədə yarışın rəsmi tviter hesabı məlumat yayıb. Siyahı klubların yerli çempionatdakı və Konfrans Liqasındakı nəticələrinə əsasən tərtib olunub.

İlk ”10-luq”da ”Qarabağ” da yer alıb. Azərbaycan təmsilçisi 3 qələbə 2 heçheçə ilə 7-ci sıradadır. Qeyd edək ki, ”köhlən atlar” dekabrın 9-da UEFA Konfrans Liqasının qrup mərhələsinin sonuncu - 6-cı turunda İsveçrədə ”Bazel”in qonağı olacaq. Hər iki kollektiv H qrupunda 11 xala malikdir və pley-offa vəsiqəni təmin edib. Ağdam təmsilçisi yalnız qələbə sayəsində qrup lideri ola və 1/8 finala yüksələ bilər.

# ÇAY bu xəstəlikdən də qoruyur:

***Amerika alimləri çayın növbəti faydasını aşkar ediblər. Araşdırmalar göstərib ki, çay qidaların qlikemik indeksini və nəticədə qanda şəkərin səviyyəsini azaldır. Bu şəkərli diabetdən əziyyət çəkən və bu xəstəliyə görə risk qrupunda olan insanlar üçün çox vacibdir.***



YENİ ARAŞDIRMA

Saglamolun.az The Daily Mail-ə istinadla xəbər verir ki, alimlərin fikrinə görə, çayın orqanizmdə qlükozanın mənimsənilməsini ləngidən xüsusiyyəti bu populyar içkidə olan polifenol maddələri ilə bağlıdır.

Bundan əvvəl keçirilmiş elmi araşdırmalar çayın ürək-damar sistemi üçün çox faydalı olduğunu təsdiq edib. Həmçinin çay beyinin fəaliyyətini aktivləşdirir, xərçəngin inkişafının qarşısını alır, orqanizmi cavanlaşdırır. Alimlər gün ərzində 3-5 fincan təzə dəmlənmiş çayı içməyi tövsiyə edir.

# Bakıda mənzildən 20 min manatlıq qızıl-zinət əşyaları oğurlanıb

***Noyabrın 29-da paytaxt sakini olan bir nəfər Binəqədi Rayon Polis İdarəsinin 5-ci Polis Bölməsinə müraciət edərək bildirib ki, ona məxsus metronun "Azadlıq" stansiyasının yaxınlığındakı evindən naməlum şəxs tərəfindən oğurluq edilib.***

Daxili İşlər Nazirliyinin Mətbuat xidmətindən SİA-ya verilən məlumata görə, həmin şəxs qapını açaraq içəridən dəyəri 20 min manat olan qızıl-zinət əşyaları oğurlayaraq hadisə yerindən yayınıb. Bölmə əməkdaşlarının həyata keçirdikləri təxirəsalınmaz əməliyyat-axtarış tədbiri nəticəsində hadisəni törətməkdə şübhəli bilinən əvvəllər də oğurluq cinayətlərinə görə məhkum edilmiş paytaxt sakini Emin Cabbarov saxlanılıb. Ondan oğurladığı qızıl-zinət əşyalarının bir qismi aşkar olunaraq maddi sübut kimi götürülüb. Emin Cabbarovun oğurluq etdiyi evə necə daxil olması inzibati ərazidə quraşdırılan müşahidə kameraları vasitə ilə də anbaan qeydə alınıb.



Saxlanılan şəxs barəsində 5-ci Polis Bölməsində toplanan materiallar araşdırmaların davam etdirilməsi üçün Binəqədi Rayon Polis İdarəsinin İstintaq Şöbəsinə göndərilib. Zəruri istintaq tədbirləri davam etdirilir. Emin Cabbarovun Bakı şəhərində digər analoji cinayətlər törətməsi də istisna edilmir.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

**Tiraj: 4600**